“Biz qədim tariximizlə fəxr edirik”


Bax 5

“Parlament seçkiləri ilə əlaqədar xarici müşahidəçilərin qeydiyyatı prosesi sürətlə davam edir”


Bax 7

“Dünya boyda Naxçıvan sevgisi”


Bax 8-9



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 005 (5970) 14 yanvar 2020-ci il. Qiyməti 40 qəpik


## İlham Əliyev: “2020-ci ildə Azərbaycan daha güclü dövlətə çevriləcək”

*Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib*



*Yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müşavirədə giriş nitqi söyləyib. Prezident İlham Əliyev öz nitqində bildirib ki, bütövlükdə 2019-cu il ölkəmiz üçün uğurlu il olub. Prezident diqqətə çatdırıb ki, ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edildi, ölkəmizin dayanıqlı inkişafı təmin olundu:*

*“Beləliklə, həm siyasi, həm iqtisadi, həm də sosial sahələrdə böyük uğurlar əldə edilmişdir. Azərbaycan sabitlik şəraitində yaşamışdır. Sabitlik hər bir ölkənin...*

Bax 2

## 20 YANVAR - 30 İLLİK ŞƏHİDLİYİN ZİRVƏSİ



*20 Yanvar faciəsi xalqımızın qan yaddaşına hüzn və kədər, qürur və qəhrəmanlıq səhifəsi kimi yazılmışdır. 20 Yanvar Azərbaycan tarixinin qanlı və şanlı səhifəsidir... 20 Yanvar faciəsindən düz 30 il ötür. 30 il ötsə də, xalqımız hər il yox, hər gün yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər Xiyabanına gələrək, qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edir, ruhlarına dualar oxuyurlar. 1990-cı il yanvarın 20-də Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdlərinə...*

Bax 12



## Luiz Suares 4 ay futboldan uzaq qalacaq!

Bax 16



*İspaniyanın “Barselona” futbol klubu ciddi itki ilə üzləşib. Komandanın əsas hücumçularından olan Luiz Suares dizindən əməliyyat olunub. Klubun rəsmi saytı 32 yaşlı uruqvaylı hücumçunun 4 ay meydana çıxa bilməyəcəyini açıqlayıb. L.Suares ötən mövsümün sonunda da dizindən əməliyyat olunub...*

## Sabiq MTX direktorunun Paşinyanı devirmək planı işə düşüb



Nikolun böyük qızı Maryamdan maraqdoğurucu iddialar

Ermənistanın baş naziri Nikol Paşinyanın böyük qızı - Maryam Paşinyan iddia edib ki, Milli Təhlükəsizlik Xidmətinin sabiq direktoru Artur Vanetsyan mətbuatda onun ailəsinə qarşı əks-kampaniyaya başladıb. Bu barədə “aysor.am” saytı yazır. “Facebook” səhifəsində rəy yazan Paşinyanın böyük qızı hakimiyyətə yaxın olan “Haykakan Jamanak” (Nikol Paşinyan bu qəzetin baş redaktoru olub, bu gün isə həmin vəzifəni arvadı Anna Akopyan icra edir - R.N.) qəzetində gedən məqaləni də paylaşıb...

Bax 13

Nikol Paşinyan ordudakı itkilər barədə ictimaiyyəti aldadır!


Bax 10

Sürüşmə sahəsində asılı vəziyyətdə qalmış torpaq kütlələrinin üzərində xırda uçqunlar baş verir


Bax 14

“Könüllülər İli” hər bir azərbaycanlı üçün uğurlu olsun”


Bax 7

# İlham Əliyev: “2020-ci ildə Azərbaycan daha güclü dövlətə çevriləcək”

## *Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib*



***Yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müşavirədə giriş nitqi söyləyib. Prezident İlham Əliyev öz nitqində bildirib ki, bütövlükdə 2019-cu il ölkəmiz üçün uğurlu il olub. Prezident diqqətə çatdırıb ki, ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edildi, ölkəmizin dayanıqlı inkişafı təmin olundu:***

“Beləliklə, həm siyasi, həm iqtisadi, həm də sosial sahələrdə böyük uğurlar əldə edilmişdir. Azərbaycan sabitlik şəraitində yaşamışdır. Sabitlik hər bir ölkənin inkişafı üçün əsas şərtdir.

Biz il ərzində müxtəlif yerlərdə gərginliyin artmasını gördük. Qanlı toqquşmalar, müharibələr, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının kobudcasına pozulması, demokratik dəyərlərin tapdalanması - bütün bunlar dünyanın demək olar ki, bütün yerlərində müşahidə olunurdu. Avropada, Asiyada, Latın Amerikasında, postsovet məkanında, bizim bölgəmizdə, Yaxın Şərqdə, dünyada gərginlik artır. Azərbaycan isə sabitlik məkanı kimi inkişaf edir. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Azərbaycan xalqının iradəsi Azərbaycanda sabitliyin əsas təminatçısıdır. Xalq tərəfindən bizə göstərilən dəstək, bizim siyasətimizə verilən yüksək qiymət həm bizi daha da ruhlandırır və eyni zamanda, ölkəmizdə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir. Sabitlik pozulanda ölkələrdə böhran, xaotik proseslər baş verir, ölkələr böyük zərər görürlər. Biz bunu 1990-cı illərin əvvəllərində öz tariximizdə görmüşük. Azərbaycanda sabitlik pozulmuşdu, ölkə böhran içində idi, bizim böyük itkilərimiz olmuşdur. Amma artıq 26 ildir ki, Azərbaycan sabitlik şəraitində yaşayır və bu illər ərzində ölkəmiz çox böyük inkişaf yolu keçmişdir. Deyə bilərəm ki, ölkəmiz əsrə bərabər inkişaf yolu keçmişdir və bu gün Azərbaycan dünya miqyasında güclü ölkələr sırasındadır.

Keçən il bizim beynəlxalq mövqelərimiz daha da möhkəmləndi. Azərbaycanda bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Bu təbirlər ölkəmizin dünyadakı mövqeyini həm əks etdirir, həm də möhkəmləndirir. Azərbaycan dünya müstəvisində çox etibarlı tərəfdaş kimi tanınır və bizim beynəlxalq gücümüz də ildən-ilə artır. İl ərzində ölkəmizə 40-dan çox dövlət və hökumət başçısı səfər etmişdir, həm ikitərəfli formatda, həm də beynəlxalq tədbirlərdə iştirak üçün. Eyni zamanda, bizim qonşu dövlətlərin dövlət və hökumət başçıları ilə çoxsaylı görüşlərim olubdur və bu görüşlər çox önəmlidir. Çünki qonşularla münasibətlərin qurulması hesab edirəm ki, hər bir ölkə üçün prioritet olmalıdır. Azərbaycanın öz qonşuları ilə çox möhkəm və qarşılıqlı maraqlar əsasında formalaşmış əlaqələri mövcuddur. Bu əlaqələr keçən il daha da möhkəmləndi. Eyni zamanda, keçən il Azərbaycana Avropa İttifaqı Şurasının prezidentinin səfəri Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri də əks etdirir. Bu səfər bu əlaqələrə böyük töhfə vermişdir. Bildiyiniz kimi, hazırda Avropa İttifaqı ilə biz yeni saziş üzərində işləyirik və ümid edirəm ki, bu işlər nəticə verəcəkdir.

Ölkəmizdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşü keçirilmişdir və Azərbaycan bu təşkilata sədrliyi öz üzərinə götürmüşdür. Eyni zamanda, ölkəmizdə Qoşulmama Hərəkatının Zirvə Görüşü keçirilmişdir. Bu Zirvə Görüşü çərçivəsində 120 üzv ölkənin yekdil qərarı ilə Azərbaycan BMT-dən sonra bu ikinci böyük beynəlxalq təsisata sədrliyi öz üzərinə götürmüşdür. Bu faktı xüsusilə qeyd etmək istəyirəm. Çünki Qoşulmama Hərəkatında birləşən bəzi ölkələr, belə demək mümkündürsə, bir-biri ilə yola getmirlər, ölkələr arasında münaqişələr, ixtilaflar var. Buna baxmayaraq, bütün ölkələr Azərbaycanın namizədliyini dəstəklədi. Bu, bir daha onu göstərir ki, beynəlxalq arenada bizə olan hörmət və etimad yüksək səviyyədədir.

Dünya dini liderlərinin II Zirvə Görüşü ölkəmizdə keçirilmişdir. Azərbaycana 70 ölkənin dini liderləri gəlmiş, bizim reallıqlarımızla tanış olmuş və ölkəmizdə dinlərarası, mədəniyyətlərarası istiqamətdə görülmüş işlərə yüksək qiymət vermişlər.

Azərbaycanda UNESKO-nun Dünya İrs Komitəsinin sessiyası keçirilmişdir. Bu da dünya miqyasında çox mötəbər tədbirdir. Bu sessiya çərçivəsində Şəki Xan Sarayı, Şəkinin mərkəzi hissəsi UNESKO-nun Dünya İrs Siyahısına daxil edilmişdir. Hesab edirəm ki, bu, çox böyük hadisədir. Çünki bu günə qədər Qobustan və İçərişəhər, Şirvanşahlar sarayı bu mötəbər siyahıya daxil edilmişdir. Hesab edirəm ki, Şəki Xan Sarayının bu siyahıda olması həm ədalətlidir, həm də bizim növbəti böyük uğurumuzdur.

Mən bir beynəlxalq tədbirə də diqqət yetirmək istərdim. Bu da keçən il Vaşinqtonda keçirilmiş Dünya Astronavtika Konqresidir. Bu, astronavtika sahəsində ən mötəbər tədbirdir. Bu konqres çərçivəsində Dünya Astronavtika Konqresinin 2022-ci ildə Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilmişdir. Bu da çox önəmli hadisədir - həm konqresin keçirilməsi böyük hadisədir, eyni zamanda, Bakı ilə bərabər, daha üç böyük şəhər bu yarışda iştirak edirdi - Rio-de-Janeyro, Sinqapur və Dehli şəhərləri. Bu çətin yarışda Azərbaycan qalib gəldi. Yəni, bu, bizim gördüyümüz işlərə böyük diqqətdir və bütövlükdə Azərbaycana göstərilən növbəti etimaddır. Onu da bildirməliyəm ki, təxminən 50 il bundan əvvəl - 1973-cü ildə Sovet İttifaqında cəmi bir dəfə Dünya Astronavtika Konqresi keçirilmişdir, özü də Bakı şəhərində. O vaxt Heydər Əliyevin səyləri nəticəsində sovet məkanında məhz Bakı bu konqresin keçirilməsi üçün seçilmişdir. Təxminən 50 ildən sonra növbəti dəfə Bakıda bu konqres keçiriləcək, artıq müstəqil Azərbaycanın paytaxtı Bakı şəhərində.”

Dövlətimizin başçısı qeyd edib ki, bizim hərbi potensialımız da möhkəmlənib, keçən il bir çox silahlar, sursatlar, hərbi texnika alınıb və Azərbaycanda istehsal olunub:

“Təsadüfi deyil ki, Azərbaycan Ordusu hərbi potensialına, maddi-texniki təchizatına və döyüş qabiliyyətinə görə dünyada 52-ci yerdədir. Keçən il əldə edilmiş nəticələr, o cümlədən hərbi şəhərciklərin tikilməsi, təmiri, yeni müasir texnika ilə təchizat məsələlərinin həlli bizim hərbi gücümüzü daha da artırmışdır.

> *“Yaxın Şərqdə, dünyada gərginlik artır. Azərbaycan isə sabitlik məkanı kimi inkişaf edir. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Azərbaycan xalqının iradəsi Azərbaycanda sabitliyin əsas təminatçısıdır”*

Ardı Səh. 3

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Avstriya Federal Kansleri Sebastian Kurtsa təbrik məktubu göndərib. Təbrikdə deyilir: “Hörmətli cənab Federal Kansler, Avstriya Respublikasının Federal Kansleri kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Avstriya arasındakı dostluq əlaqələri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir. Sizə cansağlığı, xoşbəxtlik, məsul fəaliyyətinizdə uğurlar diləyirəm”.

* * *

Prezident İlham Əliyev V.Y.Talıbovun “Şərəf” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasında dövlət quruculuğu işlərində xüsusi xidmətlərinə görə Vasif Yusif oğlu Talıbov “Şərəf” ordeni ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev Xoşbəxt Yusifzadənin “Heydər Əliyev” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan neft sənayesinin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə Xoşbəxt Bağı oğlu Yusifzadə “Heydər Əliyev” ordeni ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev Xorvatiyanın yeni seçilmiş Prezidenti Zoran Milanoviçə təbrik məktubu göndərib. Təbrikdə deyilir: “Hörmətli cənab Milanoviç, Xorvatiya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Xorvatiya arasındakı münasibətlərin bugünkü səviyyəsi məmnunluq doğurur. İnanıram ki, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Xorvatiya xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram”.

# İlham Əliyev: “2020-ci ildə Azərbaycan daha güclü dövlətə çevriləcək”

## *Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib*

Əvvəli Səh. 2

Keçən il iqtisadi sahədə böyük müsbət nəticələr əldə edilmişdir. Bu nəticələr göstərir ki, bizim siyasətimiz düşünülmüş siyasətdir. Hesab edirəm ki, Azərbaycan 2019-cu ildə iqtisadi sahədə qarşıda duran bütün vəzifələri uğurla icra etmişdir. Təkcə rəqəmlərə baxanda demək kifayətdir ki, 2019-cu il iqtisadi inkişaf baxımından ölkəmiz üçün uğurlu olmuşdur. Dünya Bankı Azərbaycanı 20 ən islahatçı ölkə siyahısına salmışdır, bu, böyük nailiyyətdir. Bu, onu göstərir ki, ölkəmizdə aparılan köklü islahatlar aparıcı beynəlxalq qurumlar tərəfindən də təqdirlə qəbul edilir. Deyə bilərəm ki, bütövlükdə 2019-cu il dərin islahatlar ili olmuşdur - həm siyasi, iqtisadi, sosial sahələrdə, həm də kadr və struktur islahatları sahələrində. Bu islahatlar inkişafımızın bundan sonra daha da uğurlu olacağına imkan verəcək, o cümlədən iqtisadi artım daha da böyük rəqəmlərlə ölçüləcəkdir.



*“Xalq tərəfindən bizə göstərilən dəstək, bizim siyasətimizə verilən yüksək qiymət həm bizi daha da ruhlandırır və eyni zamanda, ölkəmizdə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir”*

Hesab edirəm ki, keçən il iqtisadi sahədə əldə edilmiş nəticələr qənaətbəxşdir. Beləliklə, ümumi daxili məhsul 2,2 faiz artmışdır, bu, yaxşı nəticədir, xüsusilə nəzərə alsaq ki, qeyri-neft sektorunda bu artım 3,5 faizdir. Sənaye istehsalı 1,5 faiz artmışdır, ancaq qeyri-neft sektorunda sənaye istehsalı 14 faiz artmışdır. Bu da son illər ərzində sənaye sahəsində görülmüş işlərin təzahürüdür. Azərbaycanda sənaye istehsalı həm dövlət vəsaiti hesabına, həm də özəl sektorun fəaliyyəti nəticəsində artmışdır. Əminəm ki, bu artım bundan sonra da dayanıqlı olacaqdır.

Ölkəmizdə qazlaşdırma 96 faizə çatmışdır. Qazılmış 345 subartezian quyusu yüzlərlə kəndin su ilə təminatını yaxşılaşdıracaq. Onu da bildirməliyəm ki, bu il 400-dən çox subartezian quyusu qazılacaq. Artıq bütün rayonların kəndlərinin adları siyahıda var və biz il ərzində investisiya proqramı çərçivəsində bunu edəcəyik.

Yol tikintisinə gəldikdə, bu il həm magistral, həm də şəhərlərarası, kəndlərarası və qəsəbədaxili yollarla bağlı böyük layihələr icra ediləcək. Bakı-Sumqayıt-Rusiya sərhədi yeni yolunun, Gəncə-Gürcüstan sərhədi yolunun, Astara-İran sərhədi yolunun tikintisi nəzərdə tutulubdur. Keçən il 1300 kilometr yol çəkilmişdir. Biz təqribən min kilometr planlaşdırırdıq, ancaq il ərzində Prezidentin ehtiyat fondundan və dövlət büdcəsindən yaranmış əlavə gəlirlər hesabına 1300 kilometr uzunluğunda yol çəkdik.

İnfrastruktur layihələri keçən ilin əvvəlində qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı dördüncü Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Bu, beşillik proqramdır. Bundan əvvəlki üç proqram müvəffəqiyyətlə icra edildi. Əminəm ki, dördüncü proqramın icrasında da heç bir problem olmayacaq. Beləliklə, hesab edirəm ki, proqram başa çatanda artıq bizim bütün infrastruktur layihələrimiz, o cümlədən sosial infrastrukturla bağlı layihələr öz həllini tapacaqdır.

Keçən ilin əvvəlində Şamaxı, Ağsu, İsmayıllı rayonlarında böyük zəlzələ baş vermişdi. Xoşbəxtlikdən heç bir insan itkisi olmamışdır. Ancaq minlərlə ev dağıntıya məruz qaldı. Zəlzələdən dərhal sonra bölgədə olarkən vətəndaşlara söz verdim ki, qış gələnə qədər bütün evlər yenidən tikiləcək, təmir olunacaq, bərpa ediləcək. Həmişə olduğu kimi, yenə də sözümüzün üstündə durduq və artıq zəlzələnin bütün əsas fəsadları aradan qaldırıldı, minlərlə yeni ev tikildi, təmir olundu, bərpa edildi. Bu, bir daha onu göstərir ki, vətəndaşların problemlərinin həlli diqqət mərkəzindədir. Mən bunu əvvəllər də demişəm, bir daha demək istəyirəm ki, Azərbaycanda mülkiyyətin sığortalanması prosesi ilə bağlı çox böyük maarifləndirmə işləri aparılmalıdır. Vətəndaşlar bilməlidirlər ki, evlər, əmlak sığortalanmalıdır. Nəzərə alsaq ki, Azərbaycanda bu sahədə böyük boşluqlar var, dövlət bütün maliyyə yükünü öz üzərinə götürübdür. Əlbəttə, bu, böyük vəsait tələb edirdi, ancaq yenə də deyirəm, vətəndaşların rahatlığı, onların rifahı, normal yaşayışı bizim üçün əsas məsələdir. Ancaq hesab edirəm ki, bu il və bundan sonrakı illərdə əmlakın sığortalanması, o cümlədən maarifləndirmə ilə bağlı çox ciddi addımlar atılmalıdır. Bu məsələ ilə bağlı müxtəlif tədbirlər keçirilməlidir, atılacaq addımlar haqqında vətəndaşlara ətraflı məlumat verilməlidir. Hökumətə tapşırıram ki, bu məsələyə diqqət yetirsin. Eyni zamanda, bu, ölkəmizin sığorta sektorunun inkişafına müsbət təsir göstərəcəkdir.”

Daha sonra çıxış edən maliyyə naziri Samir Şərifov, Baş Nazirin müavini Şahin Mustafayev, Mərkəzi Bankın sədri Elman Rüstəmov, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Kənd Təsərrüfatı naziri İnam Kərimov, Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev çıxış edərək görülən işlər barədə danışıblar.

Dövlətimizin başçısı müşavirədə yekun nitqi söyləyib. Prezident İlham Əliyev yekun nitqində qeyd edib ki, son vaxtlar Ermənistanın baş naziri öz ölkəsinin dırnaqarası uğurları haqqında danışarkən Ermənistanı Azərbaycanla müqayisə edir. Onun gəldiyi qənaətə görə, Ermənistan Azərbaycanı bir çox parametrlər üzrə qabaqlayır:

“Bəri başdan bildirirəm və bunu heç sübut etməyə ehtiyac yoxdur ki, belə bir fərziyyənin heç bir əsası yoxdur. Azərbaycan Ermənistanı bütün əsas parametrlər üzrə böyük fərqlə qabaqlayır. Bunu təsdiqləmək üçün, sadəcə olaraq, bir neçə hadisəni və bir neçə rəqəmi səsləndirmək istərdim.

Bildiyiniz kimi, Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Yəni, bu, özlüyündə böyük bir göstəricidir. Birinci növbədə, ona görə ki, biz ilk dəfə bu böyük, şərəfli missiyaya nail olduq və o vaxt müstəqilliyimizin cəmi 20 yaşı tamam olmuşdu. Digər tərəfdən, bu, Azərbaycanın beynəlxalq nüfuzuna bilavasitə dəlalət edən amillərdən biri idi. Çünki dünya birliyinin mütləq əksəriyyəti bizə inandı, bizə etimad göstərdi və bizə öz səsini vermişdi. Bu hadisə ilə bağlı mən əvvəlki dövrlərdə kifayət qədər geniş məlumat vermişdim. Amma bir məsələ həmişə diqqətdən kənarda qalır, bir çoxları bunu bilmir. Həqiqət isə ondan ibarətdir ki, 2011-ci ildə bizdən əvvəl Ermənistan da öz namizədliyini vermişdi. Ancaq biz namizədliyi verəndən sonra onlar götür-qoy etdilər və gördülər ki, bizimlə rəqabətdə onlar 100 faiz uduzacaqlar, çox sakitcə, qorxaqcasına öz namizədliyini geri götürdülər. Çünki bilirdilər ki, BMT-də biz onlara böyük fərqlə qalib gələcəyik və beləliklə, onlar rüsvay olacaqlar. Yəni, bu, 9 il bundan əvvəl baş vermiş hadisədir və onu göstərir ki, beynəlxalq müstəvidə Ermənistanın və Azərbaycanın hörməti və çəkisi nə dərəcədə fərqlənir. BMT Təhlükəsizlik Şurasına seçilməyimiz bizim böyük siyasi və diplomatik qələbəmizdir və eyni zamanda, Ermənistan üzərində böyük qələbə idi.

2016-cı ildə Ermənistan dinc Azərbaycan əhalisinə qarşı hərbi təxribat törədib və bu təxribat nəticəsində bir neçə dinc vətəndaş həlak olub. Onların arasında uşaqlar da olub. Azərbaycan buna cavab olaraq uğurlu əks-hücum əməliyyatı keçirərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini, minlərlə hektar torpağı işğalçılardan azad etdi və o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu, bizim hərbi qələbəmiz idi. Növbəti hərbi qələbə 2018-ci ildə təmin edilmişdir. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində 10 mindən çox hektar ərazi işğalçılardan, erməni silahlı qüvvələrindən təmizləndi və bir neçə önəmli strateji yüksəklik azad edildi. Bu yüksəkliklər imkan verir ki, biz Ermənistanın strateji kommunikasiyalarına tam nəzarət edə bilək. Bu, bizim ikinci hərbi qələbəmiz idi.

Dünyanın ən güclü orduları reytinqində Azərbaycan 52-ci, Ermənistan isə 96-cı yerdədir. O cümlədən hava gücü üzrə Azərbaycan 63-cü, Ermənistan 86-cı yerdədir. Dəniz gücü üzrə Azərbaycan 67-ci yerdədir, Ermənistanda dəniz yoxdur. Tank gücü üzrə Azərbaycan 32-ci, Ermənistan 78-ci yerdədir. Mənbə “Global Firepower 2019” hesabatıdır.

İndi əsas makroiqtisadi göstəricilərə diqqət yetirirəm. Beləliklə, 2019-cu ildə Azərbaycanın ümumi daxili məhsulu dollar ekvivalentində 47,6 milyard dollardır, Ermənistanda isə cəmi 13 milyard dollar. Alıcılıq qabiliyyətinə görə Azərbaycan 187 milyard dollar daxili məhsula sahibdir, Ermənistan 33 milyard, fərq 5,6 dəfədir. Adambaşına düşən ümumi daxili məhsul Azərbaycanda 4800 dollar, Ermənistanda 4500 dollardır. Alıcılıq qabiliyyətinə görə adambaşına düşən ümumi daxili məhsul Azərbaycanda 18 min 600 dollar, Ermənistanda 11 min dollardır. Valyuta ehtiyatları Azərbaycanda 51 milyard dollar, Ermənistanda 2 milyard dollardır, fərq 25 dəfədir. Xarici ticarət dövriyyəsi Azərbaycanda 33,6 milyard, Ermənistanda 7,4 milyard dollardır, fərq 4,5 dəfədir. İxrac - Azərbaycan 19,6 milyard, Ermənistan 2,4 milyard, fərq 8,1 dəfədir. Müsbət saldo Azərbaycanda 6 milyard dollar, Ermənistanda mənfi saldo 2,6 milyard dollardır. Sərmayə qoyuluşu - keçən il Azərbaycana 13,5 milyard dollar qoyulubdur, Ermənistana 900 milyon, fərq 15 dəfədir. Xarici dövlət borcu - Azərbaycanın xarici dövlət borcu 7,9 milyard dollar, Ermənistanın 6 milyard dollardır. Azərbaycanda xarici dövlət borcu ümumi daxili məhsulun 17 faizini təşkil edir, Ermənistanda 40 faizdən çoxdur. Valyuta ehtiyatları Azərbaycanda xarici dövlət borcundan 6,4 dəfə çoxdur, Ermənistanda xarici dövlət borcu valyuta ehtiyatlarından 2,3 dəfə çoxdur. Adambaşına düşən xarici borc Azərbaycanda 799 dollar, Ermənistanda 1900 dollardır.

**Ardı Səh. 4**

# İlham Əliyev: “2020-ci ildə Azərbaycan daha güclü dövlətə çevriləcək”

## *Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib*

Əvvəli Səh. 3

“Azərbaycan Ordusu hərbi potensialına, maddi-texniki təchizatına və döyüş qabiliyyətinə görə dünyada 52-ci yerdədir. Keçən il əldə edilmiş nəticələr, o cümlədən hərbi şəhərciklərin tikilməsi, təmiri, yeni müasir texnika ilə təchizat məsələlərinin həlli bizim hərbi gücümüzü daha da artırmışdır”



Əməkhaqları və pensiyalara dair məlumatı təqdim edirəm. Beləliklə, 2019-cu ilin dekabr ayında Azərbaycanda orta əməkhaqqı 723 manat - bu, 425 dollar təşkil edir, Ermənistanda 369 dollar. Alıcılıq qabiliyyətinə görə orta əməkhaqqı üzrə Azərbaycan MDB-də ikinci, Ermənistan doqquzuncu yerdədir. Minimum pensiya Azərbaycanda 200 manat, yəni 118 dollar, Ermənistanda 55 dollardır. Minimum pensiyaya görə Azərbaycan MDB-də ikinci, Ermənistan doqquzuncu yerdədir. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB-də birinci, Ermənistan onuncu, yəni axırıncı yerdədir. Orta pensiya Azərbaycanda 262 manat, yəni 154 dollar, Ermənistanda 84 dollardır. MDB-də orta pensiyaya görə Azərbaycan dördüncü, Ermənistan səkkizinci yerdədir. Orta pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB-də ikinci, Ermənistan axırıncı - onuncu yerdədir. Yoxsulluq səviyyəsi Azərbaycanda 4,8 faiz, Ermənistanda 24 faizdir, fərq beş dəfədir. Şəhid ailələrinə və müharibə əlillərinə 2019-cu ildə Azərbaycanda 934 mənzil verilibdir, Ermənistanda sıfır. Bütövlükdə Azərbaycanda bu kateqoriyadan olan insanlara 7590 mənzil verilib, Ermənistanda, bildiyimə görə, belə proqram mövcud deyil. Təkcə keçən il bu kateqoriyadan olan insanlara 600 avtomobil verilib, Ermənistanda sıfır. Bütövlükdə bu kateqoriyadan olan insanlara 6750 avtomobil verilib, Ermənistanda sıfır.

Keçirik Davos Ümumdünya İqtisadi Forumunun qlobal rəqabətlilik hesabatına. Beləliklə, 2019-cu ildəki bəzi rəqəmləri təqdim etmək istərdim. İqtidarın uzunmüddətli strategiyasına görə Azərbaycan dünyada onuncu, Ermənistan 59-cu yerdədir. İqtidarın siyasi sabitliyi təmin etməsi - Azərbaycan 11-ci, Ermənistan 58-ci yerdədir. Məhkəmə azadlığı - Azərbaycan 39-cu, Ermənistan 67-ci yerdədir. Polis orqanlarına etimad - Azərbaycan 30-cu, Ermənistan 44-cü yerdədir. Yolların keyfiyyəti - Azərbaycan 27-ci, Ermənistan 91-ci yerdədir. Dəmir yolu xidmətlərinin səmərəliliyi - Azərbaycan dünya miqyasında 11-ci, Ermənistan 67-ci yerdədir. Hava yolları xidmətlərinin səmərəliliyi - Azərbaycan 12-ci, Ermənistan 67-ci yerdədir. İnternet istifadəçilərinin sayına, yəni əhali üzrə payına görə faizlə Azərbaycan 43-cü, Ermənistan 77-ci yerdədir. Əhali arasında rəqəmsal biliklər üzrə Azərbaycan 19-cu, Ermənistan 50-ci yerdədir. Ümumi daxili məhsul, alıcılıq qabiliyyəti pariteti üzrə Azərbaycan 69-cu, Ermənistan 120-ci yerdədir.

İndi keçirik idman sahəsinə. Azərbaycan 2019-cu ildə dünya və Avropa çempionatlarında 775 medal qazanıb, onlardan 271-i qızıl medaldır. Ermənistan cəmi 222 medal qazanıb, onlardan 61-i qızıldır. 2019-cu ildə II Avropa Oyunlarında Azərbaycan 28 medal qazanıb, Ermənistan 11 medal. 2019-cu ildə keçirilmiş güləş üzrə Avropa çempionatında Azərbaycan 13 medal qazanıb, o cümlədən 4 qızıl, Ermənistan 3 medal qazanıb, bir qızıl.

Keçirik intellektual idman növü olan şahmatda əldə edilən nəticələrə. 2019-cu ildə Avropa çempionatında səkkiz yaşlı şahmatçılar arasında Dinarə Hüseynova qızıl medal qazanaraq Avropa çempionu olmuşdur, Səadət Bəşirli və Yusif Kərimli bürünc medal qazanmışlar. On dörd yaşlı şahmatçılar arasında Ayan Allahverdiyeva Avropa çempionu olmuşdur. Qadınlardan ibarət milli komandamız Avropa çempionatında Ermənistana qalib gələrək bürünc medal qazanmışdır. Gənclərin dünya çempionatında on dörd yaşlılar arasında Aydın Süleymanlı dünya çempionu olmuşdur. Teymur Rəcəbov isə dünya kubokunun sahibi olmuşdur. 2016-cı il Rio Olimpiya Oyunlarında Azərbaycan 18 medal qazanıb, Ermənistan cəmi 4 medal. Medalların sayına görə Azərbaycan 14-cü yeri tutubdur.

Digər önəmli bir məsələ ondan ibarətdir ki, Azərbaycan faşizmin qəhrəmanlaşdırılmasına qarşı ardıcıl mübarizə aparır, Ermənistan isə faşistləri qəhrəmanlaşdırır. Faşist cəlladı olan Njdeyə İrəvanın mərkəzində 6 metrlik abidə ucaldılıb. Bu qanlı cinayətkar SMERŞ tərəfindən həbs edilib, 25 il məhkum edilib, həbsxanada ölüb və reabilitasiya olunmayıb. Belə bir adamın şərəfinə İrəvanda abidə qoyulur və Ermənistanın baş naziri bu cəlladı Soljenitsın və Molotovla eyniləşdirir. Njdenin məşhur kəlamı var: Almaniya uğrunda ölən Ermənistan uğrunda ölür və o, bunu İkinci Dünya müharibəsi zamanı demişdi. Bu, artıq onun mənfur xislətini əks etdirən ifadədir. Ona görə bu sahədə də Azərbaycan həqiqətin tərəfindədir, Ermənistan isə şər qüvvələrin tərəfindədir.

Nüfuzlu “News & World Report” mətbu orqanı tərəfindən aparılmış təhlilə əsasən dünyanın ən güclü ölkələrinin siyahısı müəyyən edilmişdir. Siyahıda cəmi 80 ölkənin adı var və Azərbaycan bu siyahıda güclü ölkələr arasında 45-ci yerdədir. Ermənistanın isə ümumiyyətlə, adı belə yoxdur. İqtisadi inkişafın templərinə görə isə bizim yerimiz dünya miqyasında 35-cidir.

Azərbaycan dünya əhəmiyyətli nəhəng layihələr icra edir. Onların arasında Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum, TANAP qaz kəmərləri var. Cənub Qaz Dəhlizi bu il istismara veriləcək. Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib və bu yol vasitəsilə yükdaşımaların həcmi ildən-ilə artır. Bakı-Tbilisi-Qars Şərq-Qərb nəqliyyat dəhlizinin tərkib hissəsidir. Biz bu layihəni qonşu ölkələrlə - Türkiyə və Gürcüstan ilə uğurla icra etdik. Digər qonşularımızla - Rusiya və İran ilə Şimal-Cənub nəqliyyat dəhlizi üzrə işlər uğurla gedir və demək olar ki, bu dəhliz fəaliyyət göstərir. Sadəcə olaraq, bu dəhlizi daha da səmərəli etmək üçün növbəti addımlar atılır. Bu nəhəng enerji və nəqliyyat layihələri Ermənistandan yan keçib. Bu, bizim qonşularımızdır, eyni zamanda, Rusiya istisna olmaqla, Ermənistanın da qonşularıdır. Yəni, biz qonşularla dostluq, əməkdaşlıq, səmimiyyət əsasında münasibətləri qurmuşuq və məhz buna görə bu layihələrə nail olmuşuq. Ermənistan isə əsrlərboyu qonşulara xor gözlə baxır, qonşulardan nəsə qoparmaq istəyir, onların torpağına iddia edir, tarixi saxtalaşdırır, tarixi abidələri saxtalaşdırır və özününküləşdirməyə cəhd edir. Fərq bundan ibarətdir.

Ermənistanı bu enerji və nəqliyyat layihələrindən biz təcrid etmişik və bunu heç vaxt gizlətməmişik. Mən hələ bir neçə il bundan əvvəl demişdim ki, biz Ermənistanı regionda bizim iştirakımızla reallaşdırılan bütün önəmli layihələrdən təcrid edəcəyik və biz buna nail olduq, həmişə olduğu kimi sözümüzə sadiq qaldıq. Ermənistan bu gün bizim səylərimiz nəticəsində siyasi, iqtisadi, investisiya, enerji və nəqliyyat dalanıdır. Torpaqlarımızdan çıxmayana qədər bu vəziyyət belə də qalacaq. Beləliklə, Ermənistan rəhbərliyi növbəti dəfə saxta məlumat əsasında Ermənistanı Azərbaycanla müqayisə etmək istəsə, yaxşı fikirləşsin. Çünki idman dili ilə desək, Azərbaycan ali liqada, Ermənistan isə üçüncü liqadadır və getdikcə bu fərq daha da böyüyəcək.

Bilirsiniz, əvvəllər mən Azərbaycanı heç bir ölkə ilə heç vaxt müqayisə etməmişəm. Biz işimizi kimisə qabaqlamaq üçün görmürük. Biz işimizi Azərbaycan xalqı, dövləti naminə görürük, sadəcə olaraq, Ermənistanın növbəti yalanlarını ifşa etmək üçün məcbur olub, bu müqayisəli təhlili sizə və Azərbaycan xalqına təqdim etdim. Özü də mənim gətirdiyim rəqəmlər həqiqəti əks etdirir, Ermənistanın gətirdiyi rəqəmlər növbəti əfsanədir, növbəti yalandır.

İndi 2020-ci il başlayıb, uğurla başlayıb. Deyə bilərəm ki, bir neçə gün bundan əvvəl Bakıda iki böyük investorla iki layihə imzalanıb, İcra Müqaviləsi imzalanıb. Bu, bərpa olunan enerji növlərinin yaradılması istiqamətində çox önəmli addımdır. İki böyük elektrik stansiyası tikiləcək - biri külək, biri Günəş. Bu hadisənin önəmi ondadır ki, vəsaiti investorlar qoyacaqlar. Yəni, bu, bizə göstərilən inamdır, Azərbaycanın uzunmüddətli inkişafına göstərilən dəstəkdir. İki stansiyanın istehsal gücü 440 meqavat olacaqdır. Bu, çox böyük stansiyalardır, regionda ən böyük Günəş və külək elektrik stansiyalarıdır. Biz özümüz də bərpa olunan enerji növlərini yaradırıq, 50 meqavatlıq stansiya inşa edildi. İndi 84 meqavatlıq stansiyanın layihələndirmə işləri tamamlanır, bunu da biz edəcəyik. Bizim enerji balansımızda bərpa olunan enerjinin payı hazırda təqribən 17-18 faizdir. Bizim uzunmüddətli strategiyamıza görə, biz bunu ən azı 30 faizə çatdırmalıyıq. Onu da bildirməliyəm ki, müsabiqədə 9 şirkət iştirak etmişdir. Yəni, özü də 9 ən böyük şirkət Azərbaycana bərpa olunan enerjini istehsal etmək üçün vəsait qoymağa hazırdır. Sadəcə olaraq, iki şirkət seçildi, hansıların ki, şərtləri daha yaxşı idi. Ancaq o demək deyil ki, qalan şirkətlər kənarda qaldılar, biz onları da dəvət edirik. Qoy, onlar öz təkliflərinə bir daha baxsınlar, şərtləri bizim üçün, ölkəmiz üçün daha məqbul etsinlər və buyursunlar, onlar üçün Azərbaycanda kifayət qədər yer var. Allaha şükür, Azərbaycan həm Günəşlə, həm küləklə zəngin ölkədir, müasir enerji infrastrukturu var. Yenə də Davosun hesabatında enerjinin əlçatanlığına görə Azərbaycan dünyada ikinci yerdədir. İxracımız da var, keçən il 60 milyon dollardan çox ixrac etmişik. Ona görə əminəm ki, bərpa olunan enerji növlərinin yaradılması bizim üçün növbəti prioritet sahə olacaq. Nazirlər Kabinetinə tapşırıram ki, müsabiqədə iştirak etmiş şirkətlərin təkliflərinə baxılsın, onlar dəvət olunsun, onlarla fərdi qaydada danışıqlar aparılsın və onlar da oxşar layihəni Azərbaycanda icra etsin.

Bir sözlə, əminəm ki, bu il Azərbaycan uğurla inkişaf edəcək. 2020-ci ildə Azərbaycan daha güclü dövlətə çevriləcək.”

# İtaliyanın "European Affairs" onlayn jurnalında Azərbaycanın inkişafı barədə yazı dərc olunub



EA
EUROPEAN AFFAIRS
GEOPOLITICA DEL MONDO MODERNO

**Azerbaigian, Euoropean Affairs intervista S.E. Mammad Ahmadzada Ambasciatore in Italia**

Published on 10 Gennaio 2020 — in ASIA PACIFICO — by Giuliano Bifolchi

Situato nel cuore della regione caspica, l'Azerbaigian vanta risorse energetiche e naturali importanti e una posizione logistica di primo rilievo. Attualmente il paese è nel pieno della sua diversificazione economica che lo renda non solo un mercato attrattivo dal punto di vista energetico, ma anche un polo mondiale dell'IT e dell'agribusiness. Abbiamo incontrato S.E. l'Ambasciatore dell'Azerbaigian in Italia Mammad Ahmadzadaper approfondire la realtà economica e industriale del paese caucasico e comprendere in che modo il mondo imprenditoriale italiano possa affacciarsi sul mercato azerbaigiano.

**Quali sono le altre caratteristiche che permettono di classificare il suo paese come un mercato economico di primo interesse?**

*Con la sua posizione geostrategica, le vaste risorse naturali, un alto tasso di crescita della popolazione, che ha raggiunto più di dieci*

**L'Italia è il primo partner commerciale dell'Azerbaigian e le aziende italiane stanno guardando sempre più spesso al suo paese come possibile mercato in cui operare. Può indicarci i principali settori verso cui gli imprenditori italiani sono direzionati e quali, invece, sono quelli ancora poco sfruttati e conosciuti che invece presentano interessanti opportunità?**

*L'Azerbaigian oggi è il principale fornitore di greggio per l'Italia, e la messa in funzione del TAP accrescerà il suo ruolo come maggiore fornitore energetico per la penisola italiana. Allo stesso tempo il nostro paese è il primo importatore di prodotti italiani nel Caucaso meridionale, e l'export italiano verso l'Azerbaigian è superiore al totale commercio bilaterale dell'Italia con gli altri paesi della regione.*

*Ci sono molte aziende italiane presenti in Azerbaigian, basti ricordare Saipem, Maire Tecnimont, Technip, e negli anni 2018-2019 il valore dei contratti concessi a società italiane in Azerbaigian è più di un miliardo di euro. Le aziende italiane partecipano anche ai progetti guidati dall'Azerbaigian in paesi esteri, come il Corridoio Meridionale del Gas, che vede più di 7 miliardi di euro per le aziende italiane. Attualmente le aziende italiane si*

***Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadənin İtaliyanın "European Affairs" onlayn jurnalında geniş müsahibəsi dərc olunub. Müsahibə yanvarın 14-də Romada keçiriləcək Azərbaycan və İtaliya arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 5-ci iclası ərəfəsində ölkəmizin iqtisadi potensialı, iki ölkə arasında iqtisadi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri ilə bağlı mövzulara həsr edilib.***

AZƏRTAC xəbər verir ki, səfir müsahibəsində Azərbaycanın geostrateji mövqeyi, zəngin təbii sərvətləri, əhalisinin yüksək artım səviyyəsi və güclü iqtisadi potensialı ilə Cənubi Qafqazın ən böyük dövləti olduğunu, ölkəmizin iqtisadi inkişafının əsasını təşkil edən enerji sektoru ilə yanaşı, son illərdə qeyri-neft sektorunun da sürətlə inkişaf etdiyini, ölkəmizdə genişmiqyaslı islahatların aparıldığını, bu müsbət nəticələrin bir sıra nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən Dünya Bankının "Doing Business-2019" hesabatında əks olunduğunu bildirib.

Ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi və iqtisadi inkişafın dayanıqlılığının təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərdən söz açan diplomat, informasiya və kommunikasiya texnologiyaları, nəqliyyat, logistika sektorlarındakı layihələrdən söz açıb, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və onun ərazisində azad iqtisadi zonanın həm Avropa, həm Asiya bazarlarına xidmət edəcəyini, həm də Avropa ilə Asiyanı birləşdirən geniş beynəlxalq logistika şəbəkəsinin bir hissəsi kimi Xəzər regionunda mühüm bir logistika mərkəzi rolunu oynayacağını, beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşən ölkəmizin strateji əhəmiyyətini daha da artıracağını, eyni zamanda, italyan şirkətləri üçün də yeni imkanlar yaradacağını deyib.

Diplomat İtaliyanın Azərbaycanın ən böyük ticarət tərəfdaşı, ölkəmizin isə İtaliya üçün əsas xam neft tədarükçüsü olduğunu, TAP təbii qaz boru kəmərinin istismara verilməsindən sonra Azərbaycanın İtaliya üçün enerji təchizatçısı kimi rolunun daha da artacağını deyib. O, habelə ölkəmizin Cənubi Qafqazda İtaliya məhsullarının əsas idxalçısı olduğunu və Azərbaycana İtaliyadan ixracının həcminin bu ölkənin Cənubi Qafqazın digər iki ölkəsi ilə birgə ticarət dövriyyəsinin həcmindən daha çox olduğunu vurğulayıb. Çoxsaylı italyan şirkətlərinin Azərbaycanın enerji, neft-kimya, infrastruktur, ətraf mühit, İKT sektorlarında həyata keçirdiyi layihələrdən söhbət açan səfir iki ölkənin bir-birini tamamlayan iqtisadiyyatlara malik olduqlarını, italyan "know-how" və texnologiyalarının Azərbaycan iqtisadiyyatının modernləşdirilməsi və şaxələndirilməsi üçün əhəmiyyətli olduğunu, ölkəmizin isə İtaliya üçün vacib enerji təchizatçısı olmaqla yanaşı, son illərdə bir sıra digər məhsullar, o cümlədən əsas fındıq tədarükçülərindən də biri olduğunu, habelə Azərbaycan Respublikası Dövlət Neft Fondu tərəfindən də İtaliyaya mühüm sərmayələrin yatırıldığını bildirib.

Müsahibədə ölkəmizin ev sahibliyi etdiyi mötəbər beynəlxalq tədbirlərdən söz açan diplomat bu tədbirlərin Azərbaycanda təşkilinin ölkəmizə böyük etimadın göstəricisi olduğunu, ölkəmizin ötən müddət ərzində dialoq üçün vacib bir platformaya çevrildiyini, bütün bunların da Azərbaycanın təkcə vacib siyasi və iqtisadi tərəfdaş kimi deyil, eyni zamanda, turizm istiqaməti kimi tanınmasında mühüm rol oynadığını deyib. O, ölkəmizin turizm potensialı, habelə bu yaxınlarda İtaliyanın aparıcı nəşriyyat evi "Polaris" tərəfindən nəşr olunmuş "Azərbaycan turizm bələdçisi" kitabı barədə məlumat verib. Səfir Bakının 2020-ci ildə futbol üzrə Avropa çempionatının bir sıra oyunlarına ev sahibliyi edəcəyini, bu oyunların italyan idman və səyahətsevərlərin Azərbaycanı ziyarət etmək üçün maraqlı imkanlardan olacağını bildirib.

Sonda diplomat yanvarın 14-də Romada keçiriləcək Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 5-ci iclası barədə danışıb, hər iki ölkənin səlahiyyətli qurumlarının nümayəndələrini bir araya gətirərək bu iclasın iki ölkə arasında iqtisadiyyatla yanaşı, humanitar, mədəniyyət, səhiyyə, elm-təhsil sahələrində əməkdaşlıqda əldə edilmiş nəticələrin müzakirəsi və Azərbaycan-İtaliya strateji tərəfdaşlığını daha da gücləndirmək üçün yeni hədəflərin müəyyənləşdirilməsində mühüm bir platforma olduğunu diqqətə çatdırıb.

Müsahibə ilə aşağıdakı link vasitəsilə tanış olmaq mümkündür: https://www.europeanaffairs.it/blog/-2020/01/10/azerbaigian-eutopean-affairs-intervista-s-e-mammad-ahmadzada-ambasciatore-in-italia/

# OPEC və müttəfiqləri neft hasilatının daha da azaldılmasını martda müzakirə edəcək



Səudiyyə Ərəbistanının başçılıq etdiyi OPEC üzvləri və Rusiya başda olmaqla digər qeyri-OPEC neft istehsalçısı ölkələr hasilatının daha da azaldılmasına dair müzakirələri mart ayınadək təxirə salıb. Bu barədə Səudiyyə Ərəbistanının Energetika naziri Abduləziz bin Salman bin Abduləziz Al Saud deyib. Qeyd edək ki, 2019-cu il dekabrın 6-da OPEC və qeyri-OPEC Nazirlərinin VII Görüşündə "OPEC plus" üzrə gündəlik neft hasilatının daha 500 min barrel azaldılması barədə qərar qəbul edilib. Yeni "Əməkdaşlıq Bəyannaməsi"nə uyğun olaraq, Azərbaycanın öhdəliyi 27 min barrel müəyyən edilib. 2020-ci ilin yanvar ayından etibarən Azərbaycan gündəlik neft hasilatını 769 min barrel həcmində saxlamalıdır.

# "Biz qədim tariximizlə fəxr edirik"

## *"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 94-cü kitabı çapdan çıxıb*




***"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 94-cü kitabı çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 94-cü kitabındakı materiallar 2019-cu ilin martından may ayınadək olan dövrü əhatə edir.***

Ötən il mayın 2-də və 3-də Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib. Prezident İlham Əliyev Forumun açılış mərasimində geniş nitq söyləyib. Azərbaycanın əsrlərboyu müxtəlif mədəniyyətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin birgə yaşayıb-yaratdığı məkan olduğunu vurğulayan dövlətimizin başçısı deyib: "Tarix və coğrafiyamız nümayiş etdirir ki, biz yalnız tərəfdaşlıq və qarşılıqlı hörmət ruhunda uğura nail ola bilərik. Azərbaycanın bugünkü sürətli inkişafı da məhz bu mədəni irsimizə və cəmiyyətimizin bütün nümayəndələrinin nümayiş etdirdiyi həmrəyliyə əsaslanır. Biz tariximiz, tarixi abidələrimizlə fəxr edirik. Onlar da əsrlərboyu müxtəlif dinlərin nümayəndələrinin Azərbaycanda yaşayıb-yaratdıqlarını göstərir. Biz qədim tariximizlə fəxr edirik".

Dövlətimizin başçısının Forumun açılış mərasimində dərin məzmunlu nitqinin mətni 94-cü kitaba daxil edilib.

Nəşrdə Prezident İlham Əliyevin Avstriya Respublikasına, Çin Xalq Respublikasına, Belçika Krallığına işgüzar səfərləri zamanı bu ölkələrin rəhbərləri ilə görüş və danışıqlarına dair materiallar, Pekində "Bir kəmər - bir yol" II Beynəlxalq Əməkdaşlıq Forumunda çıxışının, habelə Çinin "Sinxua" agentliyinə müsahibəsinin mətnləri verilib. Dövlətimizin başçısı bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Oxucu yeni kitabda Prezident İlham Əliyevin Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi münasibətilə xalqımıza təbriki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr edilmiş təntənəli mərasimdə söylədiyi nitqin mətni ilə tanış ola bilər.

Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında nitqlərinin, Kürdəxanı qəsəbəsində məcburi köçkünlər üçün salınmış yeni yaşayış kompleksinin, habelə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST) və ilk DOST Mərkəzinin inzibati binasının açılış mərasimlərində çıxışlarının mətnləri, Qobustan rayonuna səfəri zamanı ictimaiyyət nümayəndələri ilə görüşünə dair materiallar da nəşrə daxil edilib.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib. "Azərnəşr" tərəfindən buraxılan 94-cü kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Heydər Əliyev yoluna sədaqətin bariz nümunəsi

***Müasir dünyamızda qlobal iqtisadi böhranın mənfi təzahürlərinin meydana gəldiyi, tarazlaşma proseslərinin ağrılı keçdiyi bir dövrdə sosial-iqtisadi inkişafa nail olmaq və ya mövcud inkişafın dayanıqlığını təmin etmək yalnız elmi əsaslara söykənən düzgün iqtisadi siyasət nəticəsində mümkündür.***

Belə bir şəraitdə ölkəmizlə quru yolu ilə birbaşa əlaqəsi olmayan, əlverişsiz geopolitik transformasiyalar nəticəsində ana vətəndən ayrı düşərək blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının daxili resurslar hesabına yüksəlişini inamla davam etdirməsi, yeni-yeni nailiyyətlərə imza atması müstəqil Azərbaycan dövlətinin ən böyük uğurlarından biridir.

Bütün bunların başlıca səbəbi ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının muxtar respublikada Naxçıvan Ali Məclisinin sədri cənab Vasif Talıbov tərəfindən uğurla davam etdirilməsidir. Vasif Talıbov Azərbaycanda müstəqil dövlətçiliyin qurulması, respublikanın ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi dövlətin bərqərar olması kimi ali məqsədlər naminə ümummilli lideri Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı uğrunda mübarizənin öncüllərindən olmuş və müdrik rəhbərin yanında olmaqla əsl mənada onun məktəbini keçmiş, yaxın silahdaşı olmuş, həyata keçirilən siyasi kursun reallaşmasında fəal iştirak etmişdir. Cənab Vasif Talıbovun bütün fəaliyyəti Azərbaycanda, onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasında cərəyan edən mühüm siyasi, ictimai və mədəni proseslərlə sıx bağlıdır. Habelə, onun apardığı məqsədyönlü iş sayəsində qonşu xarici dövlətlərlə - Türkiyə Cümhuriyyəti və İran islam Respublikası ilə normal münasibətlər inkişaf etdirilmiş, çoxsaylı müqavilələr imzalanmışdır. Belə münasibətlər Naxçıvanda sərbəst ticarətin, iqtisadi əlaqələrin, elm, təhsil və mədəniyyətin daha da inkişaf etməsinə kömək etmişdir.

Faktlara nəzər yetirdikdə əminlik yaranır ki, muxtar respublikada mövcud olan ictimai-siyasi sabitliyin fonunda davam etdirilən bu siyasət daha böyük uğurlara yol açmaqdadır.

Naxçıvan Muxtar Respublikasında infrastrukturun yenilənməsi, müasir müəssisələrin, yeni iş yerlərinin yaradılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasının reallaşdırılmasına əsaslı töhfələr verib. Bu gün çoxşaxəli iqtisadiyyatın formalaşdırılması istiqamətində məqsədyönlü islahatların aparılması, mühüm əhəmiyyətə malik dövlət proqramlarının reallaşdırılması nəticəsində Naxçıvan sosial-iqtisadi inkişaf baxımından ölkəmizdə liderliyini qorumaqdadır. Qeyd edək ki, Islam mədəniyyətinin paytaxtı və ölkəmizin Gənclər paytaxtı kimi mühüm tarixi missiyanı yerinə yetirən Naxçıvanda iqtisadi və sosial sahələrin inkişafını təmin etmək üçün tədbirlər ötən 2019-cu il ərzində də davam etdirilib, dinamik inkişaf qorunub saxlanılıb.

İnkişafın ən mühüm göstəricilərindən biri, yəni istər maddi istehsal, istərsə də qeyri-maddi xidmətlər sahələrində iqtisadi fəaliyyətin son nəticəsini xarakterizə edən amillərdən başlıcası ümumi daxili məhsulun artım həcmidir. Həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, muxtar respublikada sənaye müəssisələri, kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması, emalı və satışı kompleksləri yaradılıb, bir sıra ərzaq məhsulları üzrə daxili istehsal xeyli artıb. Bütün bu müsbət proseslər ümumi daxili məhsulun artımına səbəb olub. Belə ki, ötən il ümumi daxili məhsul istehsalının həcmi 2 milyard 839 milyon manatdan çox olub. Bu da bir il öncəki müvafiq göstəricini 1,5 faiz üstələyir. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi ötən ilin müvafiq dövrünə nisbətən 1,6 faiz artaraq 6202 manatı ötüb.

Bir sıra istehsal sahələrində məhsul istehsalının həcminin artması, investisiya fəallığının güclənməsi, sahibkarlığın stimullaşdırılması və təşəbbüskarlığa geniş meydan verilməsi muxtar respublikanın iqtisadi dayaqlarını xeyli möhkəmləndirib. 2019-ci il ərzində iqtisadiyyatın əsasını təşkil edən sənayenin inkişaf etdirilməsi üçün rəqabət qabiliyyətli müasir istehsal sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində mövcud layihələrin icrası davam etdirilib, stimullaşdırıcı tədbirlər həyata keçirilib. Bu sahədə mühüm malların istehsalının təmini muxtar respublikada sənayenin iqtisadiyyatda xüsusi çəkisini qoruyub saxlayıb. Ötən il ərzində ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutub və maddi istehsalın payı 58 faiz təşkil edib.



Muxtar respublikada quruculuq və abadlıq işləri geniş vüsət alıb. Yeni parklar salınır, inzibati binalar, o cümlədən, məktəblər, uşaq bağçaları, səhiyyə ocaqları, idman obyektləri, icra nümayəndəlikləri və bələdiyyə binaları, ən modern üslubda lakin milli və yerli memarlıq xüsusiyyətləri nəzərə alınmaqla yüksək sürətlə və zövqlə inşa edilib vətəndaşların ixtiyarına verilir. Bütün obyektlər müasir kommunikasiya, o cümlədən, yüksək sürətli internetlə tam təmin edilib.

Kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi Naxçıvanda əsas prioritet sahələrdəndir. Ekspertlər bu sahələr arasında kənd təsərrüfatının əhəmiyyətini xüsusi qeyd edirlər. Belə ki, muxtar respublika əhalisinin 70 faizi kəndlərdə yaşayır. Müasir dövrdə ən aktual problemlərdən biri kəndlərdən şəhərlərə köçməyin kütləvi hal almasıdır. Naxçıvanda isə belə bir problem yoxdur. Kəndlərdə ticarət və xidmət obyektləri daxil olmaqla hər cür zəruri infrastrukturun yer aldığı nümunəvi kənd mərkəzləri yaradılıb. Habelə, kəndlərdə yaşayan əhalinin məşğulluğu təmin edilib. İnsanların kənd təsərrüfatı ilə məşğul olmaları, bol məhsul əldə etmələri üçün şərait yaradılıb. Yaşayış məntəqələrində müasir infrastrukturun qurulması, ölkəmizdəki ən keyfiyyətli yolların çəkilməsi, qazın, işığın davamlı verilməsi, bütün kəndlərin telefonlaşdırılması, kənddə şəhər rahatlığının ən yüksək səviyyədə təmin olunması insanların torpağa bağlılığını daha da artırıb, kənd təsərrüfatının inkişafını təmin edib. Məlumat üçün bildirək ki, bu ilin məhsulu üçün muxtar respublikada 62 min 970 hektar sahədə əkin aparılıb. Məhz görülən məqsədyönlü işlərin nəticəsidir ki, ötən il 507 milyon 641 min manatdan artıq kənd təsərrüfatı məhsulu istehsal olunmuş, bunun da xeyli hissəsi ixrac edilmişdir.

Yeri gəlmişkən qeyd edək ki, regionun strateji əhəmiyyətini nəzərə alaraq və təhlükəsizlik mülahizələri rəhbər tutularaq muxtar respublikada əhalini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə qida təhlükəsizliyi sistemi ən yüksək səviyyədə qurulmuşdur. Bu baxımdan, kənd təsərrüfatının əsasını təşkil edən taxılçılıq aqrar sektorun digər bölmələrinin inkişafında həlledici rol oynayır. Taxıl öz kaloriliyinə görə insanın ərzaq balansı rasionunun yarısını təşkil edir. Bu sahənin inkişafına qayğı, diqqət göstərmədən bir çox sahələrin inkişafı mümkün deyil. Taxıl istehsalının artırılması blokada vəziyyətində yaşayan Naxçıvan üçün xüsusilə əhəmiyyətlidir. Sevindirici haldır ki, bu sahə muxtar respublikada hər il daha da inkişaf etdirilir, yeni-yeni nailiyyətlər əldə olunur. Ötən dövrdə muxtar respublikada taxılçılıq üstün istiqamət kimi saxlanılıb və 33 min 308 hektar sahədən 102 min tondan artıq məhsul götürülüb.

Sahibkarlığın inkişafı ilə bağlı həyata keçirilən ardıcıl tədbirlər muxtar respublikanın istehsal sahələrinin genişlənməsinə və iqtisadiyyatın çoxsahəli inkişafına səbəb olmuşdur. Cari ilin ötən dövründə sahibkarlara 24 milyon 546 min manat kredit verilmiş, 72 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlamışdır ki, bunun da nəticəsində hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir. İstehsal edilən sənaye məhsulunun həcmi artaraq 1 milyard 15 milyon manata yaxın olmuşdur.

Xüsusi vurğulamaq lazımdır ki, blokada şəraitində olmasına baxmayaraq, muxtar respublikada bütün nəqliyyat və logistika sahələrində infrastrukturun yenilənməsi tədbirləri davam etdirilir. Belə ki, ötən il ərzində muxtar respublikada 93,9 kilometr uzunluğunda yeni asfalt yol salınmış, 3 körpünün tikintisi, 3 körpünün isə əsaslı təmiri başa çatdırılmış, 97 min metr fiber-obtik, 143 min metr rabitə xətləri çəkilmişdir.

Muxtar respublikanın iqtisadi inkişafında əsas prioritetlərdən biri də xarici ticarət əlaqələrinin genişləndirilməsi, ixrac potensialının gücləndirilməsidir. Sahibkarlığın inkişafı ilə bağlı həyata keçirilən sistemli tədbirlər, xüsusilə ixracın stimullaşdırılması, istehsal olunan məhsulların ixrac imkanlarının artmasına və xarici bazarlarda tanınmasına şərait yaratmışdır. 2019-cu ilin ötən dövründə muxtar respublikanın xarici ticarət dövriyyəsi 494 milyon 574 min ABŞ dolları təşkil etmişdir. Ticarət əməliyyatlarının 86,0 faizi, yaxud 425 milyon 539 min ABŞ dolları ixracın payına düşmüş, müsbət saldo yaranmışdır.

Sevindirici haldır ki, əhali arasında hüquq maarifi və profilaktik tədbirlərin gücləndirilməsinin nəticəsində cinayətkarlıq üzrə göstəricilərin aşağı səviyyədə olması qorunub saxlanılmışdır. Sosial-iqtisadi sahədə əldə edilmiş uğurlar, sabitlik və təhlükəsizliyin təmin edilməsi muxtar respublikada məskunlaşmanın və əhali rifahının yaxşılaşmasına öz təsirini göstərmiş, muxtar respublika əhalisinin sayı artaraq 460 min nəfərə yaxın olmuşdur.

Bütün bu amillər heç şübhəsiz turizm sahəsinin inkişafına da ciddi təkan vermişdir. Turizmin inkişafı sahəsində görülən işlərin və yaradılan şəraitin nəticəsidir ki, 2019-cu ilin ötən dövründə muxtar respublikaya ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən 416 minə yaxın turist gəlmişdir. Böyük Britaniyada nəşr olunan dünyanın ən məşhur səyahət jurnalı "Vanderlast" isə Naxçıvan şəhərini səyahət edilən 50 ən təhlükəsiz və gözəl şəhərlər sırasına daxil etmişdir.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu və dünyanın 70 ölkəsinin 5 mindən artıq şirkət və təşkilatını birləşdirən "Caspian European Club" 2017-ci ildə ölkədə həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqini müəyyənləşdirdiyi zaman Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq liderliyə yüksəlib.

Məlum olduğu kimi Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikası ilə quru sərhədləri mövcud deyil. Cənubdan xarici dövlətlərlə, yerdə qalan istiqamətlərdə isə Azərbaycan torpaqlarını işğal etmiş düşmən Ermənistan Respublikası ilə həmsərhəddir. Bu faktor Naxçıvan üçün təhlükəsizlik probleminin strateji baxımdan nə dərəcədə əhəmiyyətli olduğunu müəyyən edir. Ona görə də, Naxçıvanda daim silahlı qüvvələrə diqqət və qayğı ən yüksək səviyyədə həyata keçirilmişdir. Ordunun maddi-texniki təchizatı ən müasir dünya standartlarına uyğun təşkil olunmuş, mütəmadi keçirilən hərbi təlimlər nəticəsində daim hərbə hazır vəziyyətə gətirilmişdir. 2013-cü ildə Naxçıvanda yerləşən hərbi hissələrin əsasında Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun yaradılması burada dislokasiya olunmuş silahlı qüvvələrin döyüş qabiliyyətini daha da artırmışdır. Belə ki, təkcə 2018-ci ildə keçirilmiş Günnüt əməliyyatı nəticəsində 11 min hektardan artıq ərazi düşməndən təmizlənmiş, Ermənistanın strateji kommunikasiyaları ordumuzun nəzarətinə keçmişdir. Ümumiyyətlə Naxçıvanda güclü silahlı qüvvələrin mövcudluğu daim İrəvanı təhdid altında saxlayaraq bütövlükdə ölkəmizin strateji təhlükəsizliyinə mühüm töhfə verməkdədir.

Göründüyü kimi, 30 ilə yaxındır, blokada şəraitində yaşasa da, Naxçıvan Muxtar Respublikası hərtərəfli və dayanıqlı inkişafa nail olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu barədə deyib: "...Naxçıvan uğurla, sürətlə inkişaf edir. Son illər ərzində muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır. Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıbdır. Bu, məncə, dünya miqyasında rekord göstəricidir. Bütün uğurlar münasibətilə Naxçıvan Muxtar Respublikasının rəhbərliyini, bütün sakinlərini ürəkdən təbrik etmək istəyirəm".

Yuxarıda sadalananlar Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə inkişafa nail olunmasının göstəriciləri, böyük uzaqgörənliklə müəyyənləşdirilmiş inkişaf strategiyasının nəticələridir. Bu isə muxtar respublikanın şəhər və kəndlərinin simasını köklü şəkildə dəyişdirir. Hazırda Naxçıvanın hər bir sakini quruculuğun, sosial-iqtisadi inkişafın, davamlı yüksəlişin real nəticələrini öz gündəlik həyatında hiss etməkdədir.

Bütün bu nailiyyətlərin əldə edilməsində hələ təhsil aldığı və əmək fəaliyyətinə başladığı dövrlərdən doğma torpağına və xalqına qırılmaz tellərlə bağlı bir ziyalı, Prezidentimiz İlham Əliyevə sadiq və bacarıqlı dövlət xadimi kimi cənab Vasif Talıbovun misilsiz xidmətləri var. Öz mənalı ömrünün 60-cı ilinə qədəm qoyan Vasif müəllimə bundan sonra da vətənimiz, dövlətçiliyimiz, xalqımız və qədim Azərbaycan torpağı Naxçıvanımızın çiçəklənməsi naminə göstərdiyi xidmətlərinə görə daha böyük müvəffəqiyyətlər arzulayır, şəxsi və ictimai-siyasi fəaliyyətində yeni-yeni nailiyyətlər, möhkəm can sağlığı diləyirik.

Uğurlar olsun!

***Siyavuş Novruzov,***
***Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, YAP İcra katibinin müavini***



# Mərkəzi Seçki Komissiyasının Müstəqil Media Mərkəzi fəaliyyətə başlayıb





***Bu il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin yüksək səviyyədə hazırlanıb, geniş aşkarlıq şəraitində azad və ədalətli keçirilməsi üçün nəzərdə tutulan irimiqyaslı layihələr ardıcıl, sistemli və keyfiyyətlə həyata keçirilməkdədir. Müxtəlif statuslu seçki prosesi iştirakçılarının fəaliyyətinin asanlaşdırılması, onlara hərtərəfli kömək göstərilməsi, habelə ictimaiyyətin seçkilərlə bağlı dolğun və operativ məlumatlandırılmasına hədəflənən növbəti layihə çərçivəsində Mərkəzi Seçki Komissiyasının "Seçki - 2020" Müstəqil Media Mərkəzi yaradılıb.***

AZƏRTAC xəbər verir ki, yanvarın 13-də Bakı şəhərindəki Hilton otelində Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov və Komissiya üzvlərinin iştirakı ilə "Seçki - 2020" Müstəqil Media Mərkəzinin açılışı olub. Yerli və beynəlxalq kütləvi informasiya vasitələrinin asan və sərbəst məlumat əldə etmələri üçün Mərkəzdə yaradılan hərtərəfli şərait və geniş imkanlarla yaxından tanış olan sədr M.Pənahov seçki subyektlərinə göstərilən xidmətin keyfiyyətini və səmərəliliyini daha da yüksəltmək üçün tövsiyələrini verib.

Qeyd edək ki, "Seçki-2020" Müstəqil Media Mərkəzi seçkilərin geniş və obyektiv işıqlandırılması, habelə seçkilərdə şəffaflığın daha yüksək səviyyədə təmin edilməsi üçün KİV nümayəndələrinə seçkilərlə bağlı məlumat əldə etmək və operativ şəkildə ictimaiyyətə çatdırmaqda yardım göstərilməsi məqsədilə yaradılıb. Bunun üçün Mərkəz yüksək tələblərə cavab verən müasir informasiya-kommunikasiya texnologiyaları və zəruri texniki avadanlıqlarla tam təchiz olunub, həmçinin ödənişsiz internet də media təmsilçilərinin ixtiyarına verilib.

Milli Məclisə seçkilər dövründə fasiləsiz fəaliyyət göstərəcək Müstəqil Media Mərkəzində mətbuat konfransları keçirmək və bəyanatlar vermək üçün hər cür şərait mövcuddur. Müstəqil Media Mərkəzinin www.secki-2020.az internet səhifəsi artıq Azərbaycan, rus və ingilis dillərində fəaliyyət göstərir. Səhifədə seçki prosesinin gedişi ilə bağlı məlumatlar, səlahiyyətli şəxslərin və ekspertlərin rəyləri, açıqlama və bəyanatlar yerləşdirilir, eləcə də seçkilərə dair foto və video görüntülər təqdim olunur.

# "Parlament seçkiləri ilə əlaqədar xarici müşahidəçilərin qeydiyyatı prosesi sürətlə davam edir"



Milli Məclisə seçkilərlə əlaqədar 2000-ə yaxın yerli və xarici müşahidəçi müraciət edib və onların demək olar ki, hamısı müsbət cavab alıb. AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə açıqlamasında Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov bildirib.

MSK sədri deyib ki, qeydiyyatdan keçən həmin müşahidəçilərin 1630-u yerli müşahidəçidir. Xarici müşahidəçilərin sayı isə 70-ə yaxındır. ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun, Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyasının müşahidə missiyası artıq fəaliyyətə başlayıb. İtaliya, Çexiya parlamentlərinin, Litva Seyminin müşahidəçiləri artıq akkreditasiyadan keçiblər. Moldova Mərkəzi Seçki Komissiyasının nümayəndələri də seçkiləri müşahidə edəcəklər. Xarici müşahidəçilərin qeydiyyatı prosesi hazırda sürətlə davam edir.

# "Könüllülər İli" hər bir azərbaycanlı üçün uğurlu olsun"



"Prezident İlham Əliyevin 2020-ci ili "Könüllülər İli" elan etməsi özündə bir sıra mühüm məziyyətləri əks etdirir və xüsusilə, könüllülük hərəkatının daha da stimullaşmasına geniş, münbit şərait yaradır". SİA xəbər verir ki, bu fikirləri olaylar.az-a "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev sözügedən mövzu ilə bağlı şərhində bildirib.

Onun sözlərinə görə, Azərbaycanda könüllülük hərəkatının tətbiqi, reallaşdırılması eyni zamanda gənclərin gələcək həyatlarının formalaşmasına, xüsusilə onların müxtəlif ixtisaslar üzrə kadr kimi yetişmələrinə təkan verir: "Bu model özünün müasirliyi, kreativliyi ilə yanaşı, eyni zamanda gənclərin sağlam mühitdə inkişafı prosesində əhəmiyyətli məqamları ehtiva etməkdədir. O da əbəs deyil ki, cənab İlham Əliyev daim gənclərin yanında olduğunu bəyan edir, onların ölkənin inkişaf və tərəqqisi üçün böyük bir güc olduğunu vurğulayır. Bu baxımdan, könüllülər hərəkatı get-gedə daha da güclənir, əhatə dairəsini böyüdür. ASAN XİDMƏT-dən başlanan yol sonradan bir çox qurumlarda, habelə beynəlxalq mədəniyyət tədbirlərinə, idman yarışlarına qədər gedib-çıxdı və qarşıda daha yüksək zirvələri fəth edəcək. Ölkəmizdə baş tutan Formula 1 yarışlarında iştirak edən könüllülər Birinci Avropa Oyunlarında da öz peşəkarlıqları ilə seçildilər. Qarşıdan UEFA-nın Bakıda keçiriləcəyi oyunları gözlənilir və artıq könüllülərimiz bir neçə mərhələləri uğurla adladıqdan sonra bu mərhələdə də yüksək keyfiyyətlərini ortaya qoyacaqlar".

"Ümumiyyətlə, sözügedən model MDB məkanında, eləcə də beynəlxalq aləmdə mövcud olsa da, Azərbaycanın könüllülər modeli bütün bunları üstələyir", deyə qeyd edən Bəhruz Quliyev onu da bildirib ki, hər bir gənc bu prosesdə iştirak etməklə, yeni qarşıladığımız 2020-ci ilə öz töhfələrini verə bilərlər: "Hesab edirəm ki, Könüllülər İli həm də gənclərimizin inkişaf və tərəqqi ili kimi tarixə düşəcək və əlbəttə ki, dövlət başçımız cənab İlham Əliyevin bu qərarı yeniyetmə və gənclərimizin sağlam ruhda inkişaflarına, həyatlarında ardıcıl uğur qazanmalarına hesablanmış addımdır. "Könüllülər İli" hər bir azərbaycanlı üçün uğurlu olsun".

# Milli Məclisə seçkiləri müşahidə etmək istəyənlər üçün qeydiyyat prosesi yanvarın 30-dək davam edəcək




Fevralın 9-da Azərbaycanda Milli Məclisə keçiriləcək seçkiləri müşahidə etmək istəyənlər üçün qeydiyyat prosesi davam edir. "Seçki-2020" Müstəqil Media Mərkəzinin xəbərində deyilir ki, bu proses Seçki Məcəlləsinin 1.1.19, 1.1.20, 40.4, 40.6, 44-cü maddələrinə əsasən tənzimlənir.

Aktiv seçki hüququna malik Azərbaycan vətəndaşı (öz təşəbbüsü ilə, qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında), beynəlxalq müşahidəçilər qanunla müəyyənləşdirilmiş qaydada, Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməklə bütün seçki dairələrində müşahidə apara bilərlər.

Ərizələrin Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc olunduğu gündən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalanadək davam edir. Milli Məclisə seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təqvim planına görə, proses 2020-ci il yanvarın 30-dək davam edəcək.

## Romada Azərbaycanla İtaliyanın iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının 5-ci iclası keçiriləcək

***Yanvarın 14-də Romada Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 5-ci iclası keçiriləcək. Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iclasda hökumətlərarası komissiyanın həmsədrləri, Azərbaycanın Energetika naziri Pərviz Şahbazov və İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq nazirinin müavini Manlio Di Stefanonun başçılıq etdikləri nümayəndə heyətləri iştirak edəcək.***

Komissiyanın gündəliyinə iki ölkə arasında ticarət-iqtisadi, enerji, logistika və infrastruktur, kənd təsərrüfatı, mədəniyyət və turizm sahələrində əməkdaşlığa dair məsələlər daxil edilib. Həmçinin AZPROMO, Azərbaycan İnvestisiya Şirkəti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Respublikası Dövlət Neft Fondu və İtaliyanın müvafiq qurumlarının iştirakı ilə hər iki ölkədə investisiya imkanları və perspektivlərin müzakirəsinə həsr olunmuş sessiya keçiriləcək.

Gündəlikdəki məsələlərin müzakirəsindən sonra Hökumətlərarası Komissiyanın 5-ci iclasının yekunlarına dair Protokol imzalanacaq. Hökumətlərarası Komissiyanın iclası çərçivəsində Energetika naziri P.Şahbazovun İtaliyanın İqtisadi İnkişaf naziri Stefano Patuanelli, eləcə də "Ansaldo Energia", "Maire Tecnimont", "Technip FMC", "DBA Group" və "Alstom Italia" şirkətləri ilə görüşləri də nəzərdə tutulub.

# Vasif Talıbov-60

# “Dünya boyda Naxçıvan sevgisi”



***Yanvarın 14-ü Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun doğum günü - 60 illik yubileyidir. NUHÇIXAN Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri, YAP Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının üzvü Sahil Tahirlinin bu münasibətlə qələmə aldığı “Dünya boyda Naxçıvan sevgisi” məqaləsini öz izləyicilərinə təqdim edir:***

***

Müdriklərin bir fikri həmişə xüsusilə diqqətimi çəkib: “İdeal insanlar səmadakı ulduzlara bənzəyirlər. Biz onlara çata bilməsək də, onlar bizim yolumuzda mayak olub həmişə onu işıqlandırırlar”.

Bu mənada, görkəmli dövlət xadimi Heydər Əliyev həm də Azərbaycan xalqının böyük idealı və iftixarıdır. Heç şübhəsiz ki, Ulu öndərin xalqımız qarşısında ən böyük xidmətlərindən biri də qədim Naxçıvanı işğal və məhv olmaq təhlükəsindən qorumasında, onun gələcəyini özünün dövlətçilik məktəbində yetişib formalaşan Vasif Talıbova etibar etməsində idi.

Ümummilli lider Heydər Əliyev sonralar bunu belə dəyərləndirəcəkdi: “Mən, ümumiyyətlə, demək istəyirəm ki, Naxçıvanda işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun bir çox xüsusiyyətlərini bilirdim. Amma o, çox gənc idi. Daxilən bir az fikirləşdim ki, gəncliyinə görə, bəlkə də, ağır, çətin olar. Ancaq o sübut etdi ki, Vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər görə bilər”.

## Dünya boyda Naxçıvan sevgisi

Həqiqətən də, Ali Məclisin Sədri təkcə dövlətçilik fəaliyyətinin ilk illərində deyil, bir qərinəlik dönəmdə - son 30 ildə də sübut etdi ki, O, Heydər Əliyevin quruculuq və möhkəm dövlətçilik yoluna sözdə yox, işdə və əməldə, möhkəm əqidədə dərindən sadiqdir...

Yanvarın 14-ü Ali Məclis Sədrinin doğum günüdür. Artıq O da həyata 60 ilin zirvəsindən baxır. Bu gün ONUN günüdür: Böyük vətənpərvər, qətiyyətli, cəsarətli olduğu qədər də humanist, quru, pafoslu söz və görüntülərdən uzaq, hədsiz təvazökar, ürəyində dünya boyda Naxçıvan sevgisi gəzdirən Vətən aşiqinin...

Hər nə qədər də təvazökarlıq göstərib özü haqqında, Naxçıvan üçün gördüyü böyük işlər barədə deyilməsini, yazılmasını adətən istəməsə də, bu gün özümdə cəsarət toplaya bilmişəm...

Ömür yolu -

“Naxçıvan Ensiklopediyası”ndan qısa çıxarış:

“Talıbov Vasif Yusif oğlu. 14 yanvar 1960-cı ildə Şərur rayonunun Aşağı Aralıq kəndində zəhmətkeş ailəsində doğulmuşdur. İşlədiyi və təhsil aldığı illərdə doğma torpağına və xalqına qırılmaz tellərlə bağlı bir ziyalı kimi daim fəal həyat mövqeyində dayanmışdır. Azərbaycanda müstəqil dövlətçiliyin qurulması və möhkəmləndirilməsi, Yeni Azərbaycanın qurulması məqsədilə həyata keçirilən islahatlar, bölgənin ərazi bütövlüyünün qorunması, ölkədə demokratik dəyərlərin bərqərar olması, milli dəyərlərin yaşadılması kimi ali məqsədlərə çatmaq üçün ümummilli lider Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı uğrunda mübarizənin öncüllərindən olmuş və müdrik rəhbərin yanında olmaqla əsl mənada onun məktəbini keçmiş, yaxın silahdaşı olmuş, həyata keçirilən islahatlarda fəal iştirak etmişdir.

Əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasında fəal iştirak etmişdir. YAP-ın Naxçıvan Muxtar Respublika təşkilatının 1995-ci il aprelin 8-də keçirilən konfransında onun sədri seçilən Vasif Talıbov, həm də partiya xadimidir. O, Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs əsasında Azərbaycanda vətəndaş cəmiyyətinin və hüquqi dövlətin bərqərar olmasında, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və mədəniyyətinin daha da tərəqqisində, xalqın rifahının yaxşılaşdırılmasına yönəldilən tədbirlərin həyata keçirilməsi üçün müvafiq qanunların qəbul olunmasında olduqca səmərəli fəaliyyət göstərir. 1995-ci ildən muxtar respublikaya rəhbərlik edən Vasif Talıbov ilk növbədə ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən muxtar respublikanın ərazisinin bütövlüyünün qorunub möhkəmləndirilməsi problemlərini bacarıqla həll etmişdir”.

İxtisarla verdiyimiz qısa təqdimatdan da göründüyü kimi, Ali Məclisin Sədri mühüm bir vəzifəni sadəcə vəzifə daşımaq naminə tutmayıb... Əməyi də layiqincə qiymətləndirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri Vasif Talıbov ölkəmiz qarşısındakı xüsusi xidmətlərinə görə “Şöhrət” və “Şərəf” ordenləri ilə təltif olunub.

## Təlatümsüz dəniz əsla peşəkar bir dənizçi yetişdirə bilməz

Bir zamanlar miskin bir əyalət şəhəri olan Naxçıvanın adı indi ən müasir Avropa şəhərləri ilə yanaşı çəkilir. Dünya ölkələrinin bir çoxunun uğrunda qan tökdüyü ərzaq, enerji, müdafiə, informasiya təhlükəsizliyi Naxçıvanda bir neçə ildir ki, öz həllini tapıb. Şəhərlər, rayon mərkəzləri, qəsəbə və ən ucqar kəndlər də yeni don geyinib. Bir vaxtlar yolu-izi bilinməyən diyarımıza indi dünyanın yüzlərlə ölkəsindən minlərlə turist gəlir. Təsadüfi deyil ki, Böyük Britaniyada nəşr olunan dünyanın ən məhşur səyahət jurnalı “Vanderlast” Naxçıvan şəhərini səyahət edilən 50 ən təhlükəsiz və gözəl şəhərlər sırasına daxil edib... Naxçıvan həm də qorxusuz-hürküsüz, təhlükəsiz şəhərdir. Mütərəqqi ideyalara əsaslanan hüquqi dövlət quruculuğu Naxçıvanda uğurla həyata keçirilib, 1998-ci ildə dövlət idarəçiliyinin əsası olan Naxçıvan Muxtar Respublikasının Konstitusiyası qəbul edilib. Bu gün Naxçıvanın idarəetmə modelinin nümunə səviyyəsinə yüksəlməsinin əsas səbəblərindən biri də hüquqi islahatların yeni dövrün tələbləri ilə uzlaşdırılmasıdır.

“Şadam ki, Naxçıvanda bütün istiqamətlər üzrə işlər yaxşı gedir. Əminəm ki, bu dinamika gələn il də təmin ediləcək. Əminəm ki, muxtar respublika əhalisinin sosial rifahının yaxşılaşdırılması, respublika qarşısında duran bütün vəzifələrin icrası üçün bütün qüvvələr səfərbər ediləcək və 2020-ci il də Naxçıvan üçün uğurlu olacaqdır”,-deyən Prezidentimizin himayəsi və qayğısı, Ali Məclis Sədrinin rəhbərliyi ilə bu diyarda son illər yüzlərlə sənaye müəssisəsi, fabrik, zavod qurulub, yaşıllıq zolaqları, parklar, xiyabanlar salınıb. Ötən əsrin 90-cı illərində iflic vəziyyətinə düşən kənd təsərrüfatı iqtisadiyyatda aparıcı qüvvəyə çevrilib, böyük investisiya layihələrinin tətbiqi nəticəsində yeni suvarma sistemləri qurulmaqla minlərlə hektar torpaq əkin dövriyyəsinə qatılıb. Şəhər və kəndlərdə kiçik və orta sahibkarlar sinifi formalaşıb, verilən güzəştli kreditlər və hərtərəfli dövlət dəstəyi hesabına yüzlərlə ailə təsərrüfatları yaranaraq inkişaf edir. Bu hesaba on minlərlə yeni iş yerləri açılıb, gənclərin təhsil və sağlamlıq problemləri tamamilə

# Vasif Talıbov-60

aradan qaldırılıb. İqtisadi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalı 2018-ci ildə 2 milyard 773 milyon manat olmaqla 2003-cü ildəki müvafiq göstəricini 16,5 dəfə üstələyib. Naxçıvanda ötən 10 ildə 8 milyard 522 milyon 233 min manatdan çox infrastruktur quruculuğu işləri aparılıb. Bu dövr ərzində 100 elm və təhsil müəssisəsi, o cümlədən 20 min 114 şagird yerlik 66 ümumtəhsil məktəbi, 216 mədəniyyət obyekti, 113 səhiyyə müəssisəsi, 668 istehsal və xidmət sahəsi, 11 idman və bir sıra digər obyektlər tikilib, yüzlərlə qəsəbə və kənd mərkəzi istifadəyə verilib.

Azərbaycanda ilk dəfə icbari tibbi sığortanın tətbiqinə başlanılıb. Ən müasir məktəblər, xəstəxanalar, elm mərkəzləri, yollar, körpülər tikilib. Bu gün Naxçıvan şəhəri də daxil olmaqla digər 5 rayon dövlət büdcəsindən hər hansı bir dotasiya almadan özü-özünü təmin edir.

"Keçmişinə sahib çıxmayanın gələcəyi olmaz",- tezisi əsas götürülərək bərpa edilən 70-dən artıq tarixi abidə ikinci ömrünə qovuşub. Naxçıvanın tarix və mədəniyyətinə dair minlərlə kitab və elmi əsərlər işıq üzü görüb, beynəlxalq əhəmiyyətli fundamental elmi-tədqiqatlar aparılıb. Blokada şəraitində, minbir əzab-əziyyətlə əldə edilən bu göstəricilər, obrazlı desək, təlatümlü dənizdə dalğalarla çırpışan bir gəmini sahilə çıxarmaq qədər çətindir. Əgər gəminin kapitanı bunu bacarırsa, deməli, o, QƏHRƏMANdır...

## Ağıllı adamlar söyləyəcək sözləri olduğu üçün, axmaqlar mütləq danışmaq məcburiyyətində olduqları üçün danışırlar (Platon)

Əlbəttə, çox az bir qismini sadaladığım bu nailiyyətlər asanlıqla başa gəlməyib. Çəkilən böyük zəhmətin, aparılan qətiyyətli mübarizənin nəticəsində meydana çıxıb. Ali Məclisin Sədri muxtar respublika əhalisini Naxçıvanın çiçəklənməsi ideyası və gələcək inkişaf konturları ətrafında səfərbər etməyi bacarmış və onların böyük zəhmətinə arxalanmışdır. Biri işğalçı Ermənistan olmaqla üç ölkə ilə həmsərhəd olan, düz 100 ildir ki Azərbaycanın əsas ərazisindən ayrı-blokadada yaşayan Naxçıvanı idarə etmək də heç kimə asan gəlməməlidir...

Görkəmli mütəfəkkir Diogen ağa qara deyən, bulanıq sularda balıq tutmağı məqsədə çevirən adamlar barədə deyirdi: "Kölgə salmayın, mən sizdən başqa lütfkarlıqlar istəmirəm". Təəssüf ki, bu diyarda atılan mütərəqqi addımların, muxtar respublikanın inkişafı, gələcəyi ilə bağlı verilən qərarların bir sıra dairələrdə, eləcə də mediada kəskin qarayaxma və iftira kampaniyaları ilə qarşılandığının, hadisələrin mahiyyətinin təhrif olunması halları ilə üzləşdiyinin də az şahidi olmamışıq. Böyük tikinti-quruculuq və yaşıllaşdırma proqramlarının icrası, taksi və nəqliyyat xidmətlərinin təkmilləşdirilməsi, yas mərasimlərinin islami qaydalara salınması, qəbiristanlıqların abadlaşdırılması, Naxçıvan şəhərini xarabazara döndərən yöndəmsiz tikililərin sökülüb yerlərində park və yaşayış komplekslərinin salınması, oxunması zəruri olan kitablarla bağlı sərəncamın imzalanması kimi mütərəqqi addımlar atılarkən "daşatıb başını tutanlar" da az olmayıb... Ancaq karvan həmişə öz yolu ilə gedib... Konfutsinin təbirincə desək, "əgər bir yerdə kiçik insanların kölgəsi böyüyürsə, demək o yerdə Günəş batır". Cənab Vasif Talıbov bu gün həm də Naxçıvanın inkişafını istəməyən xarici və daxili "qüvvə"lərin, şəxsi maraqlarının əsirinə çevrilən cılız düşüncəli, qərəzli adamların kölgəsinin böyüməsinin qarşısını alan, yerini bilməyənlərə cəsarətlə öz yerini göstərən qətiyyətli dövlət xadimi kimi də seçilir və tanınır... 20 illik jurnalist təcrübəmdə görüb əxz etdiklərimdən biri də bu olub: Ali Məclisin Sədri bəzən elə danışıb ki hamı susub, bəzən elə susub ki heç kim danışmağa cəsarət etməyib...

Bakıda yaşayıb fəaliyyət göstərən jurnalist həmkarlarımız Günay Ardanın ötən günlərdə qələmə aldığı "Bu şəhərə getmədən "dünyanı görmüşəm" deməyin - Səkkizinci möcüzə" məqaləsində bir nüans xüsusilə diqqətimi çəkdi. Müəllif yazır:

## Naxçıvanı kimlər sevmir?

"Bu yaxınlarda mediada bir xəbər yayıldı. Evə oğurluğa girən şəxs axtardığını tapa bilmir. Evdən çıxanda ev yiyəsi üçün nalayiq ifadələr yazır. Naxçıvanı sevməyənlər də belə adamlardır. Bu torpaqdan oğurluq etmək istəyib edə bilməyənlər, tüfeyli həyata meyilli olanlar, işləməkdən, halal zəhmətdən uzaq adamlar Naxçıvanı sevmir. Pis əməllərinə meydan verilmədiyi üçün vərəqdə ev sahibinə söyüş yazan oğruya çevrilirlər".

Təbii ki, faktdan böyük fakt yoxdur və tarixin də heç bir dönəmində olmayıb. Naxçıvanın kəndbəkənd, şəhərbəşəhər dəyişib yeni don geyinməsi bizim gözlərimiz qarşısında baş verib. 90-cı illərin statistikasına nəzər saldıqda görürük ki, 300 min nəfər əhalinin yaşadığı muxtar respublikada bir il ərzində 800-850 cinayət hadisəsi baş verirdi. İndi əhalinin 450 mini keçməsinə baxmayaraq il ərzində 3-4 kiçik hadisə müşahidə edilir: Ötən tədris ilində işğalçı Ermənistanda 20-ə qədər məktəb imkansızlıq və şəraitsizlikdən bağlanıb. Ancaq Naxçıvanda demək olar ki, hər ay yeni bir elektronlaşmış məktəb kompleksi tikilib və ya yenidən qurulub istifadəyə verilir. Təkcə bir faktı deyim ki, bu tədris ilində əvvəllər müəyyən səbəblərdən Naxçıvandan köçmüş ailələrdən olan 300-dən artıq şagird məktəblərə qəbul edilib. Açılan iş yerləri və yaradılan yüksək standartlı yaşayış şəraiti uşaqları, ailələri də doğma torpağa qaytarır. Ali məktəblərə qəbul göstəriciləri də 90-cı illərlə müqayisədə 3-4 dəfə artıb. Bir vaxtlar ciddi içməli və suvarma suyu problemi yaşanan Naxçıvanda indi 225 min nəfər öz evində tam standartlara uyğun təmiz su ilə təmin edilir. Bütün əhali təbii qaz, elektrik enerjisi və sürətli internet xidmətləri ilə əhatə olunub. Enerji problemlərinin uğurlu həlli ekeoloji durumu da xeyli yaxşılaşdırıb. 90-cı illərdə quraq və çılpaq olan Naxçıvanın indi 20 faiz ərazisi yaşıllıq altındadır. Ali Məclis Sədrinin sıx iş qrfikinə nəzər salanda görürük ki, muxtar respublika rəhbəri hər həftə Naxçıvanda yeni sosial obyektlərin, istehsal müəssisələrinin açılışını edir. Bütün bunları isə yerli əhali böyük razılıq və minnətdralıq hissləri ilə qarşılayır. Ali Məclis Sədrinə öz sevgilərini, səmimi fikirlərini çatdırarkən isə ilk cümləléri bu olur: "Biz bütün bu görülən işlərə, rahat yaşayışımıza görə ulu öndər Heydər Əliyevə, onun davamçılarına borcluyuq. Allah Prezidentimizə, Sizə can sağlığı versin ki, Vətənimizi bundan sonra da inkişaf etdirib çiçəkləndirəsiniz".

## "Ən yaxşı nəsihət: yaxşı örnək olmaqdır"

Naxçıvan televiziyasının arxiv fondunda 25-30 il əvvələ aid çox dəyərli videokadrlar mühafizə olunur. 1996-cı ilə aid həmin videoxronikalardan birində öz platformasını açıqlayan Ali Məclisin Sədri deyir ki, mənim ayrca bir platformam yoxdur, mənim yolum Heydər Əliyevin yolu, Heydər Əliyevin siyasi xəttidir: "Bütün qüvvə və bacarığımı Naxçıvanın çiçəklənməsinə sərf edəcəyəm, ordu quruculuğu, təhsil, intellektli və vətənpərvər gəncliyin yetişdirilməsi fəaliyyətimdə üstün istiqamət olacaq".

Qısa tarix və keçilən yol sübut etdi ki, verilən vədlər söz olaraq qalmayıb. "Ən yaxşı nəsihət: yaxşı örnək olmaqdır", - prinsipi əsas tutularaq iş və əməldə nümunə göstərildi. Nəticədə Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı, Azərbaycanın Gənclər Paytaxtı seçildi, Avropa Günlərinin, Gənc Liderlər Forumunun keçirildiyi intellektli və müasir təfəkkürlü vətənpərvər gənclərin şəhərinə çevrildi. Reklamçılıqdan, şüarçılıqdan uzaq iş və əməllərlə doğma torpağa layiqli bir xidmət nümunəsi yaradıldı.

Ulu öndər Heydər Əliyev deyirdi ki, dövlətçilik hər bir şəxsin qəlbində olmalıdır. Həqiqətən də Naxçıvanın inkişafında, quruculuğunda ən xarakterik cəhət bu işlərin qəlbən, sevgi ilə görülməsidir, nəticəli olmasıdır. Yəni Ali Məclisin Sədri bizə Vətəni, torpağı, Naxçıvanı necə sevmək lazım olduğunu da öyrədir. Naxçıvanlılar nə üçün yaşadıqlarını, niyə yaşadıqlarını gözəl bilirlər. Hər kəsin məqsədi, məramı, yolu ölkə Prezidentinin rəhbərliyi altında ulu öndərin siyasi xətti ətrafında sıx birləşməkdir - bütöv Azərbaycan, güclü dövlət, yenilməz xalq olmaqdır.

## İkinci ömür

Biz insanlar getdiyimiz bütün yolların tezliklə mənzil başına çatmasını arzulayırıq. Təkcə ömür yolu istisnadır. Heç kim onun tezliklə sonuncu dayanacağa çatmasını istəmir. Amma hər kəs üçün həyat bir gün sonlanır, yolun sonu görünür. Önəmli olan isə yaşadığın ömrü mənalı keçirmək, xalqa, millətə, insanlara faydalı olmaq, tikib-qurmaq, özündən sonra səni yaşadacaq əsərlər yaratmaqdır. Məhz bu amillər insana ikinci ömür qazandırır.

Sözsüz ki, cənab Vasif Talıbovun 60 illik yubileyinə ən dəyərli hədiyyə ONUN qazandığı sonsuz xalq sevgisidir. Bu gün hər bir naxçıvanlının qəlbində CƏNAB SƏDRə sonzus sevgi var... Bu sevgi illər, qərinələr, əsrlər keçdikcə daha da artacaq... Çünki bu sevginin təməlində vətənpərvərlik dayanır, yenidən qurulan Naxçıvan dayanır, rahat yaşayış, firəvan həyat, sabitlik və ən nəhayət elə insanlara, bütün naxçıvanlılara olan sonsuz sevgi dayanır.

Ali Məclisin Sədri həm də sağlığında özünə ikinci ömür qazanan şəxsiyyətlərdəndir. Çünki Hörmətli Sədrimizin bütün fəaliyyəti Azərbaycanda, onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasında cərəyan edən mühüm siyasi, ictimai və mədəni proseslərlə sıx bağlı olub. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev kimi onun siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun da adı həmişə intibah tariximizlə qoşa çəkiləcəkdir.

*Şöhrətin sözdə yox, əməlindədir,*
*Sən xalqın oğlusan, xalq səninlədir,*
*Ucalır şöhrətin, ucalır adın,*
*Bütün varlığınla elə bağlısan,*
*Qədim Naxçıvanın əziz oğlusan...*

P.S. Ali Məclisin Sədri həm də muxtar respublikanın xarici siyasi və iqtisadi əlaqələrinin qurulub inkişaf etdirilməsində müstəsna xidmətlər göstərib. Məqaləyə əlavə etdiyim fotoşəkili 10 il bundan əvvəl Avstriyaya işgüzar səfər çərçivəsində Armenland Milli Parkında çəkmişdim və mətbuatda ilk dəfə dərc edilir.

***Sahil Tahirli***
***Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri,***
***YAP Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının üzvü***

# Naxçıvanlı alimin erməni yalanlarını ifşa edən məqaləsi beynəlxalq jurnalda çap olunub

"İRS-Heritage" beynəlxalq jurnalın növbəti sayında AMEA-nın Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyevin "Xristianlığın ilk şəhid milləti" ermənilərdirmi?" mövzusunda məqaləsi dərc olunub. AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, rus dilində çap olunan məqalədə "böyük erməni tarixi"ni yaratmaq üçün "Nuhun nəvələri və varisləri", "vəd olunmuş torpaqlar", "yer üzünün ilk xristian etnosu və dövləti" kimi iddialar ortaya atan, tarixlərini real olaraq deyil, görmək istədikləri kimi dəyişdirməyə çalışan saxtakar erməni yalanlarından bəhs edilir.




Qeyd olunur ki, erməni iddialardan biri də "xristianlığın ilk şəhid milləti" iddiasıdır ki, bu da 1915-ci il hadisələrini müsəlman-xristian toqquşması kimi bütün dünya ictimaiyyətinə təhrif olunmuş şəkildə tanıtmaqdır. Məqalədə bildirilir ki, ermənilərin "din strategiyası" nın qaranlıq pərdəsi altında ərazi iddiaları və "dənizdən-dənizə böyük Ermənistan" dövləti qurmaq xülyası yatır.

# Azərbaycan dinlərarası dialoq məkanıdır



***Müasir dövrdə Azərbaycana dünyanın müxtəlif dövətlərinin marağının artması ölkəmizin siyasi gücünün, iqtisadi inkişafının göstəricisi olmaqla yanaşı, bu, milli dəyərlərə, tolerant, sülhsevər dövlət olduğumuzdan da qaynaqlanır. Mötəbər tədbirlərin iştirakçısı olaraq Azərbaycan torerant dövlət olaraq diqqətdədir. Belə bir dəyərləri ilə örnək olan Azərbaycanda tarixən müxtəlif xalqlar və dinlər arasında qarşılıqlı hörmətə və etimada əsaslanan səmimi dostluq və əməkdaşlıq münasibətləri mövcuddur. Yüksək tolerantlıq ənənələrinin formalaşdığı dünyəvi, çoxmillətli və çoxkonfessiyalı dövlət kimi ölkəmiz tanınır. Azərbaycan Prezidenti İlham Əliyev müsahibələrin birində vurğuladığı kimi, biz əsrlər boyu bu ab-havada yaşamışıq və Azərbaycanda yaşayan bütün dinlərin nümayəndələri heç vaxt heç bir ayrı-seçkilik hiss etməmişlər, heç vaxt tarixdə dini-milli zəmində Azərbaycanda qarşıdurma, yaxud da hansısa bir anlaşılmazlıq olmamışdır.***

Azərbaycan Prezidenti İlham Əliyevin məlum sərəncamları ilə ölkəmizdə 2016-cı ilin "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsi bəşəri dəyərlərə olan ali münasibətin daha bir təzahürü olaraq dəyərləndirildi. Ölkəmizə gələn hər bir kəs burada tolerantlıq mühitinin bir daha şahidinə çevrilirlər. Bu gün dünya ictimaiyyəti Azərbaycanın nümunəvi tolerantlıq, multikulturalizm modelini, dinlərarası dialoq mədəniyyətini qəbul edir və öyrənir. Bu gün dünyəvi, müasir, dünyaya açıq olan Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri birgə yaşayır və ölkəmizin uğurlu inkişafına töhfələrini verirlər. Belə ki, əhalisi əsasən müsəlmanlardan ibarət olan Azərbaycanda əsrlər boyu mövcud olan dini tolerantlıq, dünyəvilik, multikulturalizm ənənələri sayəsində yəhudi və xristian icmaları həmişə əmin-amanlıq şəraitində yaşayıblar. Ölkəmiz siyasi, iqtisadi olmaqla yanaşı, eyni zamanda, dinlərarası dialoqun təşviqi baxımından, çox mühüm platforma yaradıb. Ölkəmizdə keçirilən Dünya Dini Liderlərinin Zirvə toplantısı, Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Humanitar Forumu, BMT-nin Sivilizasiyalar Alyansı Qlobal Forumu və digər tədbirlər dini və milli zəmində olan ixtilafların azaldılmasına öz təsirini göstərib.

## "APARDIĞIMIZ SİYASƏT DAXİLİ VƏZİYYƏTİN SABİTLƏŞMƏSİNƏ, SABİT SAXLANMASINA XİDMƏT GÖSTƏRİR"

Qütbləşən dünyada əhatəli və sülhsevər cəmiyyətlərin necə qurulması yolları müzakirə edilir. Təbii ki, hər məsələnin mərkəzində insan amili dayanır və bəşəriyyətdə olan insanların rifahının yüksək olması vacib məsələlərdəndir. Sülhün qorunması, dayanıqlı inkişaf, ədalətli bölüşmə, regional rifah və inkişafda uçurumun azaldılması önəmli hədəflər sırasındadır və belə mövzuların müzakirə edilərək, mühüm qərarların qəbul edilməsi vacibdir. Beynəlxalq tədbirlərdə edilən çağırışlar əhəmiyyət kəsb edir. Cənab Prezidentin vurğuladığı kimi, "Apardığımız siyasət daxili vəziyyətin sabitləşməsinə, sabit saxlanmasına xidmət göstərir. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı bir ölkədir. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi yaşayır.Bu unikal təcrübə artıq bir çox ölkələr tərəfindən öyrənilir. Bu, həqiqətən belədir. Bu, həm dövlət siyasətidir, həm də cəmiyyətdən gələn sifarişdir".

Hər hansı bir cəmiyyətdə sosial tolerantlığın bərqərar olmasında və multikultural dəyərlərin tərəqqisində siyasi hakimiyyətin iradəsi əvəzsizdir. Azərbaycanın dövlət başçısı daim ölkədə qədim multikultural dəyərlərin, tolerantlıq ənənələrini təşviq edərək, radikallığı, ekstremizmi və dinlərarası nifrəti rədd edir. Görülən işlər yüksək bir şəkildə qiymətləndirilir. "İslam Əməkdaşlıq Təşkilatının rəhbərliyi dəfələrlə Azərbaycanda müsəlman dininə olan hörmətə və müsəlman dininin dünyada sülh, mərhəmət dini kimi təqdim edilməsində gördüyümüz işlərə çox böyük qiymət vermişdir" deyən Cənab Prezident aparıcı müsəlman ölkələrinin rəhbərlərinin bunu açıq şəkildə ifadə etdiklərini bildirib: "Biz birinci ölkə və yeganə müsəlman ölkəsi olmuşuq ki, müsəlman tarixinə, mədəniyyətinə aid sərgini Vatikanda keçirdik. Biz müsəlman dəyərlərinin Avropada təbliğ edilməsində çox böyük rol oynayırıq. Təsadüfi deyil ki, müsəlman ölkələrinin rəhbərləri bu sahədəki fəaliyyətimizə yüksək qiymət verirlər".

Azərbaycan dünyanın ən qədim xristian dövlətlərindən birinin yerləşdiyi məkan olub və xristian icması əsrlər boyunca Azərbaycan tarixinin formalaşmasında iştirak edib. Xristian və müsəlman icmaları ilə yanaşı yaşayan təqribən 30 minlik yəhudi icması isə Azərbaycanda iki min ildən bəri yaşamaqdadır. İnkarolunmaz faktdır bu gün Azərbaycanın ictimai-siyasi həyatında xristian, yəhudi etiqadlı vətəndaşlar yaxından iştirak edir, töhfələrini verirlər. Ölkəmizdə mövcud olan vəziyyət, reallıqlar dövlət siyasətinin məntiqi nəticəsidir. Azərbaycanda olan multikulturalizm məktəbi, tolerantlıq bu gün yeni mərhələdədir.

***Zümrüd BAYRAMOVA***

## Nikol Paşinyan ordudakı itkilər barədə ictimaiyyəti aldadır!



Ermənistanın baş naziri Nikol Paşinyan yanvarın 10-da "Facebook" səhifəsində Ermənistan ordusunda itkilər baxımından tarixi minimumun qeydə alındığını elan edib. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, "Ermənistan ordusunda 2019-cu ildəkindən daha az itki olmayıb", - deyə N.Paşinyan sosial şəbəkədə qeyd edib. Helsinki Vətəndaş Assambleyası - Vanadzor (HCA) ofisi 2018-ci ildə rəsmi mənbələrə, kütləvi informasiya vasitələrinə və bəzi hallarda ölən hərbçilərin yaxınlarının da məlumatlarına əsaslanaraq, 1994-cü ildən bəri Ermənistan silahlı qüvvələrindəki itkilər barədə geniş hesabat dərc edib. Son on ildə Ermənistanda və Qarabağdakı silahlı birləşmələrdə hərbi və qeyri-döyüş itkilərinə dair məlumatlar araşdırıldıqda məlum olur ki, orduda itkilərin sayının ötənilkindən - 49 nəfərdən az qeydə alındığı illər də olub. Belə ki, 2013-cü ildə 31, 2014-cü ildə 45 ölüm faktı qeydə alınıb. Bunu "Faktların yoxlanılması" platforması yazıb. Bundan başqa, hesabata görə 2000-ci illərin əvvəllərinin statistikası göstərir ki, 2003-2007-ci illərdə görünməmiş aşağı ölüm hadisəsi olub. Məlumatlar "Civilitas" Vəqfinin analitiki Tatul Hakobyan tərəfindən müxtəlif dövlət qurumlarının, həmçinin Helsinki Vətəndaş Assambleyası-Vanadzor ofisinin, Sülh Dialoq Təşkilatının, Razminfo xəbər saytının və digərlərinin məlumatları əsasında toplanıb. Tədqiqata görə, 2003-cü ildə 40, 2004-cü ildə 38, 2005-ci ildə 47, 2006-cı ildə 33 (hərbi prokurorluğa görə 36), 2007-ci ildə 31 (hərbi prokurorluqda 50) itki olub. Bütün bunlar onu göstərir ki, baş nazir N.Paşinyan bir daha ictimaiyyətə yalan məlumat verməklə Ermənistan vətəndaşlarını aldadır (http://politik.am/pashinyani-sutybanakum-ardzanagrvats-zoheri-masin-zoheri-arumov-patmakan-minimum-exel-e-qocharyani-ev-sargsyani).

## "Namizədlərin seçiciləri ilə görüşmələri üçün lazımi şərait təmin olunub"



Azərbaycanda fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərlə əlaqədar namizədlərin seçiciləri ilə görüşmələri üçün lazımi şərait təmin olunub. Bu fikri jurnalistlərə açıqlamasında Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov bildirib. MSK sədri əlavə edib ki, bütün seçki dairələri üzrə namizədlərin öz seçiciləri ilə görüşmələri üçün yerlər ayrılıb. Həmin ərazilər MSK tərəfindən yoxlanılıb. Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq açıq və qapalı yerlər ayrılıb və mətbuatda da dərc edilib. Namizədlər həmin yerlərdə sərbəst şəkildə seçiciləri ilə görüşə bilərlər.

## " Prezidentin könüllülərlə bağlı Sərəncamı gənclərin potensialından daha səmərəli istifadə olunmasına təkan verəcək"



Cəmiyyət üçün faydalı olan müxtəlif layihələrin keçirilməsində könüllülər fəal iştirak edirlər. Gənc könüllülərin bu layihələrdə iştirakı, aksiyalara və seminarlara qatılması onların dünyagörüşünün formalaşmasında çox böyük rol oynayır. Ümidvarıq ki, dövlətimizin başçısının Sərəncamı ilə bu ilin "Könüllülər ili" elan edilməsi gənclərin potensialından daha səmərəli istifadə olunmasına təkan verəcək.

Bu sözləri AZƏRTAC-a müsahibəsində könüllü Mahmud Mahmudov söyləyib. Könüllü olmağın onun karyerasında önəmli rol oynadığını diqqətə çatdıran M. Mahmudov deyib: "Könüllülük fəaliyyətinə Bakı Dövlət Neft və Energetika Kollecində təhsil alarkən başlamışam. Təhsillə könüllülük fəaliyyətini bir yerdə aparmaq çətin olsa da, gərginlikdən qorxmadım. Könüllü olmağın həyatımda "yaşıl işıq" yandıracağına inanırdım. "ASAN xidmət" könüllüsü olmuş bir gənc kimi deyə bilərəm ki, bu iş gələcək fəaliyyətimə mayak kimi işıq saldı və bu yolla irəliləməyə başladım. Öz təcrübəmə əsaslanaraq bütün gəncləri könüllü olmağa, cəmiyyət üçün faydalı işlər görməyə çağırıram".

Könüllülük fəaliyyətinin ona insanlarla ünsiyyət qurmaq təcrübəsi qazandırdığını, kollektivdə işləməyi öyrətdiyini deyən Mahmud Mahmudov bildirib: "İş fəaliyyətində uğurlu olmaq üçün ən vacib şərtlərdən biri də insanlarla düzgün ünsiyyət bacarığına malik olmaqdır. İnsanın aurası, dil və danışıq mədəniyyəti, ətrafındakı insanlarla davranışı onun necə insan olması barədə ilkin təsəvvür yaradır. "ASAN School" könüllülük məktəbi məndə bütün bu keyfiyyətləri formalaşdırdı. Bu müddətdə vətəndaşlarla ünsiyyət qurmaq bacarığına, onları dinləmə mədəniyyətinə yiyələndim, öz işimdə məsuliyyətli olmaq və peşəkarlığı öyrəndim. Təcrübəm məndə müasir texnologiyalardan istifadə etməyi, müxtəlif sənəd formaları ilə işləmə bacarığını formalaşdırdı".

## Fransa portalı Azərbaycan haqqında məqalə yayıb




Fransanın Revue-conflits.com portalında "Müsəlman millətin-dövlətin yaranması: Azərbaycan" adlı məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə ölkəmizin Fransadakı səfiri Rəhman Mustafayevin bu yaxınlarda "Presse du Chatelet" nəşriyyatında fransız dilində çap olunmuş "Azərbaycan böyük dövlətlər arasında" adlı kitabdakı faktlardan istifadə edilib.

Yazıda ölkəmizin tarixi, coğrafiyası, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, mövcudluğu dövründə üzləşdiyi çətinliklərdən və fəaliyyətinə yaradılan maneələrdən bəhs olunur. Bildirilir ki, Azərbaycan ilk dünyəvi müsəlman ölkəsi olmaqla yanaşı, hələ XX əsrin əvvəllərində bir çox Avropa ölkələrindən əvvəl gender bərabərliyini və qadınlara səsvermə hüququnu təmin edib. Qeyd olunur ki, mürəkkəb geosiyasi məkanda yerləşən Azərbaycanda müxtəlif konfessiyaların və dinlərin nümayəndələri mehribanlıq şəraitində yaşayırlar.

***Bir erməni jurnalist sensasiyalı addım atıb. Diana Arutunyan özünün Feysbuk səhifəsində yazıb ki, baş nazir Nikol Paşinyan iranlı general Qasım Süleymaninin öldürülməsi ilə bağlı ABŞ Prezidenti Donald Trampı təbrik edib. Ona "beynəlxalq terrorla mübarizədə yeni uğurlar arzulayıb". İran mətbuatı bu məlumata dərhal reaksiya verərək, cavab yazıb. Lakin rəsmi İrəvan dərhal izahat verib ki, baş nazir belə bir şey deməyib. Ancaq, necə deyərlər, "ağa durur - ağacan durur". İrəvandakı Amerika səfirliyi informasiyanı təkzib etməyib. Təbii ki, bu vəziyyətdə Ermənistan kimi forpost bir dövlət üçün ciddi təhlükələr ortaya çıxır. Orada, faktiki olaraq, real hakimiyyət mövcud deyil. Xalqın nə düşündüyü də məlum deyil. Ermənistanın havadarlarından biri Robert Koçaryanı, digəri isə N.Paşinyanı "dost" sayır. Bu qeyri-müəyyənlikdə Ermənistanın öz mövqeyi yoxdur. Eyni zamanda, erməni dövlətçiliyinin mayasında satqınlıq və xəyanət mövcuddur. N.Paşinyan "həyat yolu" hesab etdikləri İrana arxa çevirə bilər. Zatən, onun əlamətləri görünür. Bütün bunların fonunda İrəvanın iranlı generalın qətlindən sonra tuta biləcəyi geosiyasi mövqe üzərində geniş dayanmağa ehtiyac görürük.***




# Erməni baş nazirin təbriki: terroru maliyyələşdirən dövlətin beynəlxalq terrorla "mübarizəsi"

## Yalançının aqibəti: Paşinyan dilindən tələyə düşdü

Dağa çıxmaq "küçə demokratı"na düşmədi. N.Paşinyan bir az turistlik etmək istədi, ancaq analitiklər onu da burnundan gətirdilər. Ermənistan KİV-lərində baş nazirin ölkədəki ABŞ səfirliyini İran İslam İnqilabı Keşikçiləri Korpusunun (Sepah) "Əl-Qüds" bölməsinin komandanı Q.Süleymaninin öldürülməsi münasibətilə təbrik etdiyi haqqında informasiya dərc olunub. Buna İran mətbuatı dərhal reaksiya verib. İran diplomatik dillə anladıb ki, belə şeylər cavabsız qalmır. Məsələn, erməni məsələsində Tehran ədalətli mövqe tutub, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində praktiki olaraq iştirak edə bilər. Erməni jurnalistlər bunu İrandakı erməni diplomatlarına ölüm hökmünün çıxarılması kimi qiymətləndiriblər.

Qlobal və regional miqyasda hazırda cərəyan edən geosiyasi proseslərə nəzər saldıqda, yayılan informasiyanın doğruluğuna inam yaranır. Bununla yanaşı, Ermənistanda bir sıra siyasətçilərin ölkənin milli təhlükəsizliyi üçün risklərin meydana gəldiyini vurğulamaları təsadüfi deyil. Təsəvvür edin, Rusiya Prezidenti R.Koçaryanı təbrik edir, N.Paşinyan da D.Trampı. Belə çıxır ki, Rusiya N.Paşinyana etibar etmir və N.Paşinyan ABŞ Prezidentinə etibar edir. Bu informasiyanı, təbii ki, N.Paşinyan təkzib edib və hətta onu yayanları hədələyib. Guya o, D.Trampı təbrik etməyib. Konkret olaraq, ABŞ Prezidentinə Yaxın Şərqdə beynəlxalq terrorizmlə mübarizədə "yeni uğurlar" arzulamayıb. Erməni jurnalist D.Arutunyanın yazdığına görə, N.Paşinyan D.Trampa "terrorizmlə bundan sonrakı mübarizədə uğurlar və nailiyyətlər arzulayıb" və "Ermənistan ABŞ-ın İraqda beynəlxalq terrora qarşı uğurlarını alqışlayır". Nəhayət, N.Paşinyan hesab edir ki, "intiqam qaçılmazdır və bütün terrorçular məhv ediləcək".

Əlbəttə, əgər bu cür informasiyanın əsası olmasa idi, erməni jurnalist yazmazdı. Çünki onun nə ilə sonuclana biləcəyini yaxşı bilir. Bundan başqa, ABŞ səfirliyindən onu təkzib edən də yoxdur. Mətndən göründüyü kimi, N.Paşinyan konkret ad çəkmir. Ancaq iranlı generalın qətlindən sonra belə bir təbrik verilirsə, birbaşa həmin hadisə ilə əlaqəlidir. Bundan başqa, İran mətbuatında da ona dərhal reaksiya verilib. Deməli, söhbət ciddi məqamlardan gedir. Əslində, burada təəccüblü bir şey yoxdur. Çünki, məsələ, birincisi, Ermənistanın yeni baş nazirinin şəxsi keyfiyyətləri və səbatsız siyasi mövqeyi ilə bağlıdır. Onun hakimiyyətə necə gəldiyi sirr deyil. N.Paşinyan Amerikanın milyonları üzərində baş nazir olub və bunun bədəlini ödəməlidir. Bilinir ki, N.Paşinyan sözdə Rusiya ilə dostluqdan danışır, ancaq əlaltından amerikalılarla işləyir. Bununla bağlı bir neçə dəfə Kremldən xəbərdarlıq olub. Erməni nazirin bir şəxs olaraq da avantürist xislətə malik olduğu sirr deyil. O, atdığı addımlarda bunu nümayiş etdirib.

Həmin bağlılıqda N.Paşinyanın Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı aparılan danışıqlara erməni separatçı-terrorçuların da daxil edilməsi təklifini irəli sürməsini göstərmək olar. Digər misal İrəvanın mərkəzində faşist cəlladı Qaregin Njdeyə heykəl qoyulmasını ciddi-cəhdlə müdafiə etməsi və onu görkəmli yazıçı, ictimai və siyasi xadim Aleksandr Soljenitsınla müqayisə etməyə çalışmasıdır.

Kimliyi qeyri-müəyyən olan birisi siyasətdə etibar qazana bilməz. İnandırıcıdır ki, o, Q.Süleymaninin öldürülməsindən məmnundur. Çünki təxmin edir ki, bir vaxt işğalçı erməni qoşunlarının Azərbaycan ərazisindən qovulması zamanı iranlılar Azərbaycanı müdafiə edə bilərlər. Həm də onlar müsəlmandırlar axı. Ermənistan rəhbərliyi üçün isə kimliyindən asılı olmayaraq hər bir müsəlman potensial düşməndir. Bunun səbəbi yalnız mənəvi-əxlaqi korluqla, bədniyyətliliklə bağlı deyil. İrəvanda hesab edirlər ki, ərazilərini ancaq qonşu müsəlman ölkələrin əraziləri hesabına genişləndirə bilərlər. Bu, ikinci məqamdır və birbaşa Ermənistanın dövlət olaraq siyasi kimliyi ilə bağlıdır.

## Geosiyasi iddialar və terror: Ermənistan rəhbərliyinin əsl siması

Şübhə yoxdur ki, Rusiyadan torpaq qopara bilməzlər. Gürcüstana ABŞ toxunmağa icazə verməz. Qalır İran, Azərbaycan və Türkiyə. Bu ölkələrdən torpağı ermənilər öz gücləri hesabına ala bilməzlər. Deməli, xarici dəstək lazımdır. O dəstək də indiki mərhələdə yalnız Qərb ola bilər. Səbəbi sadədir. Rusiya "öz payını ermənilərə 100 il əvvəl verib". İndi geosiyasi vəziyyət dəyişib. Moskva ikinci dəfə səhv etməz. Amerika və Avropa isə tam olaraq islamofobiya mərəzinə yoluxub. Onlar bütün regionlarda xristianların dövlət qurması üçün bütün əməlləri illərdir ki, edirlər. Buna görə də indi ermənilərin ümidi Qərb "demokratiyasına"na qalıb. Real faktlar da bunu sübut edir.

ABŞ və Fransa sözdə Azərbaycanın ərazi bütövlüyündən danışır, əməldə isə Ermənistana yardım edirlər (Rusiya da həmçinin). İndi informasiya yayırlar ki, 2020-ci ildə Vaşinqton işğalçı, təcavüzkar və beynəlxalq terrorun bir parçası olan Ermənistana 140 milyon dollar yardım ayıracaq. Rusiya Ermənistana SU-30M qırıcı təyyarələrini verib. N.Paşinyan məhz onlara arxalanaraq 2019-cu ilin hərbi-texniki uğurları haqqında moizə oxuyur. Fransa da Ermənistana hərtərəfli dəstək verir. Qonşu ölkənin ərazisini işğal etmiş Ermənistanda Frankofoniya təşkilatının sammitini keçirməyin, sıx yaxınlığın olmağından dəm vurmağın başqa hansı adı vardır?

Bütün bunlara görədir ki, forpost dövlət uzun illərdir ki, ATƏT-in Minsk qrupu formatı çərçivəsində qeyri-konstruktiv mövqe tutur, danışıqlar prosesini qeyri-müəyyən məcraya yönəltməyə çalışır və həll prosesini uzadır. Adi gözlə görünür ki, onu əməldə Avropa və Amerika müdafiə edir. BMT Nizamnaməsinə görə isə ona qarşı çoxdan sanksiyalar tətbiq edilməli, işğal etdiyi ərazini tərk etməyə məcbur olunmalı idi.

Bütün bunların fonunda Ermənistanın yeritdiyi xarici siyasətə nəzər salaq. Bu siyasətdə açıq-aşkar yeni işğalçılıq iştahası özünü göstərir. İndi erməni siyasi dairələri Naxçıvandan, Türkiyənin bir sıra əyalətlərindən və hərdən Gürcüstanın bir hissəsindən bəhs edirlər. Və bu həyasız iddialara Qərbdən heç bir reaksiya olmur. Sanki pərdə arasında ermənilərı təhrik edənlər də həmin istiqamətdəndir.

Təbii ki, bu kimi şərtlər onu göstərir ki, ermənilər sözdə İranla nə qədər dost kimi görünməyə çalışsalar da, məqamı gələndə onun da torpağına göz dikəcəklər. Və bunu ancaq Qərbin geosiyasi uğuru olsa, edə biləcəklər. Həmin səbəbdəndir ki, N.Paşinyan D.Trampdan "beynəlxalq terrorla mübarizədə yeni uğurlar" gözləyir. Yəni, "bu kimi işlərinizi davam edin, regiondakı müsəlman dövlətlər zəifləsinlər və ermənilər də bundan istifadə edib, onların torpaqlarına yiyə dursunlar. Bu, "qədim və mədəni xalq"ın "sivil" və "demokratik" arzusudur.

Belə çıxır ki, N.Paşinyanın amerikalıları təbrik etməsi heç də təsadüfi deyil. Bu, birbaşa erməni dövlətçiliyinin mənəviyyatsızlığı ilə bağlıdır. Ermənilər üçün ədalət və ya əxlaq faktoru deyilən bir şey yoxdur. Onlar güman edirlər ki, imkan daxilində nə qədər çox torpaq zəbt etsələr, bir o qədər böyük "dövlət" qura bilərlər. Ancaq bu cür şovinizmin də puç olduğunu sübut edən təkzibedilməz fakt mövcuddur!

O, əlahəzrət tarixi reallıqdır! Bu reallıq onu göstərir ki, heç zaman süni yaradılmış dövlət uzunömürlü olmur. Ermənistanı 100 il əvvəl imperialist qüvvələr yaratdı, ancaq o, süquta məhkumdur. Çünki Ermənistan bu müddətdə özünü müstəqil dövlət kimi təsdiq edə bilmədi. O, daim vassal, forpost, kölə ola biləcəyini nümayiş etdirdi. Keçən bir əsrdə erməni siyasi şüurunda müstəqil dövlət obrazı formalaşa bilmədi. Ona bədnam "soyqırımı" nağılı, hamıdan mədəni olmaq xülyası, başqalarından daha ağıllı olmaq fantaziyası və əsassız "daha qiymətli xalq" statusuna yönəlik iddialar mane oldu və bu, davam edir. Təsəvvür edin, bir regionda bir neçə xalq yaşayır, onlardan ən kiçik ölkə ermənilərə aid edilib (yadlar tərəfindən), ancaq regionun ən ağıllıları bunlardır? Bu, absurddur. Əksinə, ən kiçik və zəif dövlətə malik olmaq tarixi erməni reallığıdır: satqın, səbatsız, siyasi şüuru zədəli, psixologiyası anormal, hiyləgər, şərçi bir cəmiyyət üçün bu da çoxdur. Bundan artığına onlar iddia edə bilməzlər. Etsələr də, onun tarixi sonucu özləri üçün müsbət bitməz. Ya dəyişib, əllərində olanları saxlamalıdırlar, ya da tarix öz hökmünü verəcək! Məsələ bunun kimin əli ilə olacağında deyil. Tarixi ədaləti pozmaq mümkün deyildir!

Deməli, N.Paşinyan Q.Süleymaninin ölümünə görə amerikalılara təşəkkür etməyibsə və ya bunu düşünmürsə, erməni deyil. Ermənidirsə, həmin düşüncənin sahibidir. Bütün İran yas içində ikən Ermənistanda bu ölkənin imkan düşəndə hansı ərazilərini qoparmağın planlarını xəyal edənlər az deyil. Vaxt gələcək və bu barədə tarixçilər sənədlər əsasında danışacaqlar!

***Newtimes.az***




# 20 YANVAR - 30 İLLİK ŞƏHİDLİYİN ZİRVƏSİ

***20 Yanvar faciəsi xalqımızın qan yaddaşına hüzn və kədər, qürur və qəhrəmanlıq səhifəsi kimi yazılmışdır. 20 Yanvar Azərbaycan tarixinin qanlı və şanlı səhifəsidir... 20 Yanvar faciəsindən düz 30 il ötür. 30 il ötsə də, xalqımız hər il yox, hər gün yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər Xiyabanına gələrək, qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edir, ruhlarına dualar oxuyurlar. 1990-cı il yanvarın 20-də Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdlərinə, keçmiş SSRİ rəhbərliyinin Azərbaycanla bağlı apardığı qərəzli siyasətə, yerli rəhbərliyin xalqımızın mənafeyinə zidd mövqedə durmasına qarşı etiraz əlaməti olaraq, küçələrə çıxmış dinc əhaliyə divan tutmaq məqsədilə Bakıya və respublikanın digər rayonlarına Sovet hərbi hissələri yeridildi.***

Dinc əhalinin kütləvi etiraz aksiyalarının ağır hərbi texnikanın köməyi ilə vəhşicəsinə dağıdılması təkcə süquta uğramaqda olan Sovet siyasi sisteminin qorunması cəhdi kimi deyil, həm də azərbaycanlıların tarixi torpaqlarından sıxışdırılıb çıxarılması ilə bağlı Çar Rusiyasının əsrlərlə apardığı mənfur siyasətin yeni şəraitdə davamı idi. 20 Yanvar faciəsi törədilən zaman Azərbaycan xalqı ağır iflic vəziyyətinə və informasiya blokadasına salınmışdı, radio, televiziya susdurulmuşdu, onun enerji bloku silahlı hərbçilər tərəfindən vəhşicəsinə partladılmış, mətbuat vasitələrinin nəşrinə qadağa qoyulmuşdu. Elə yanvarın 19-da axşam Azərbaycan Televiziyasının enerji bloku partladıldı. 20 Yanvar faciəsini araşdıran dövlət komissiyası tərəfindən sübut edilib ki, həmin partlayış DTK tərəfindən törədilərək həyata keçirilib. Hakimiyyətin mənbəyi sayılan və öz hüquqları uğrunda düşüncəsi, fikri, sözü, həmrəyliyi ilə mübarizəyə qalxmış bir xalq 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə öz zəhmli ordusunun tankları, işıqsaçan zəhərli gülləri, xüsusi təyinatlı hərbi dəstələri, pozuculuq-təxribat işlərini təşkil edən çevik qrupları ilə üzləşdi. Görünməmiş qəddarlıqla keçirilən cəza tədbirləri nəticəsində heç bir günahı olmayan 131 dinc sakin öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar olub. Bu hadisə Sovet rejiminin törətdiyi ən qanlı faciələrdən biri və dinc əhaliyə qarşı yönəlmiş vəhşi bir cinayət hadisəsi idi.

## Faciə xalqı yumruq kimi birləşdirdi

1990-cı il 20 Yanvar hadisələri Azərbaycan xalqının milli bütövlüyünü təsdiqləyən ən böyük hadisələrdən biri kimi tarixin yaddaşına əbədi həkk edildi. Bu faciə xalqı yumruq kimi birləşdirdi və bütün dünya azərbaycanlılarının gücünü ifadə etdi. 20 Yanvar faciəsi bütün dünyanı lərzəyə gətirsə də, yerli hakimiyyət orqanları baş verənlərin üzərindən sükutla keçməyə üstünlük verir, xalqın milli faciəsinə laqeyd münasibətlərini ortaya qoyaraq, Kremlin qəzəbinə tuş gəlmək istəmirdi. Xalqın bu ağır günlərində, yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, təşkil olunmuş yığıncaqda çıxış edərək, xalqla birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və o zamankı respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv olduğunu göstərdi. O, baş vermiş faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirib, başda Qorbaçov olmaqla, Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı və bu vəhşiliyə etiraz əlaməti olaraq, Kommunist Partiyası sıralarından çıxdığını bəyan etdi. Bu tarixi çıxışın mətni dünyaya, respublikaya geniş yayıldı. Xalqın qəlbində ümid çırağı yandı.

## 20 Yanvar hadisələrinə ilk dəfə siyasi-hüquqi qiyməti Ulu Öndər Heydər Əliyev verdi

1990-cı ilin iyulunda Moskvadan vətənə qayıdan Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabr ayının 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən sənəd qəbul edildi. Naxçıvan Ali Məclisində qəbul edilmiş və 20 Yanvar faciəsinə ilk siyasi-hüquqi qiymət verən, eyni zamanda, Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Sənəddə respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi respublika rəhbərliyindən tələb edilirdi.

Azərbaycan Prezidenti İlham Əliyev 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin və övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm sənədlər imzalayıb. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanı da bu məqsədə xidmət edir.

Bu gün Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər Xiyabanıdır. Hər il yanvarın 20-də minlərlə insan Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş Azərbaycanın oğul və qızlarının əziz xatirəsini ehtiramla yad etmək üçün buranı ziyarət edir. Nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaqdır.

***R.KAMALQIZI***




# Bernama agentliyi Azərbaycanın multikulturalizm modelindən yazır

***Malayziyanın ən böyük rəsmi mətbuat orqanı və çoxsaylı oxucu kütləsinə malik xəbər istehsalçısı olan Malayziya Milli Xəbər Agentliyi (BERNAMA) ölkəmizin multikultural və tolerantlıq təcrübəsinə dair geniş məqalə dərc edib. AZƏRTAC xəbər verir ki, agentliyin xarici xəbərlər üzrə peşəkar jurnalistlərindən biri Ravi-çandra Rajamanikam tərəfindən yazılmış məqalə "Azərbaycan Malayziya ilə multikulturalizm sahəsində əməkdaşlıq etməkdə maraqlıdır" adlanır.***

Məqalə bir müddət əvvəl ölkəmizdə səfərdə olan jurnalistin Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) icraçı direktoru Rəvan Həsənov ilə apardığı müsahibə, eləcə də özünün şəxsi müşahidələri əsasında hazırlanıb. Müəllif multikulturalizmin Azərbaycanda bilavasitə dövlət tərəfindən dəstəkləndiyinə diqqət çəkərək, BBMM-in icraçı direktoru R.Həsənovun bu barədə izahına istinad edir və yazır: "Azərbaycanın multikulturalizm modeli üç əsas element üzərində qurulub - etnik və dini müxtəlifliyə hörmət, dövlət siyasəti olaraq hökumətin bu sahəyə tam dəstəyi və fərqli dini-mədəni icmalara qeyri-assimilyasiya münasibəti".

Həmçinin R.Həsənov Azərbaycana xarici investisiyaların cəlb olunması, ölkənin iqtisadi inkişafı, eləcə də ictimai həmrəyliyin təmin olunması sahəsində əldə edilmiş mütərəqqi nailiyyətlərdə dövlətin apardığı multikulturalizm siyasətinin əvəzsiz rol oynadığını bildirir. Milli və universal əxlaqi dəyərləri özündə əks etdirən bu modelin uğur qazanmasında isə R.Həsənov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1990-cı illərdə bünövrəsini qoyduğu uzaqgörən siyasətin əhəmiyyətini qeyd edir. O, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə başlanan İslam və Qərb sivilizasiyaları, o cümlədən xalqlar və mədəniyyətlər arasında əməkdaşlığı təşviq edən "Bakı Prosesi"ni bu siyasətin beynəlxalq modelə çevrilməsində vacib amil kimi vurğulayır.

Coğrafi olaraq Azərbaycanın Şərqi Avropa və Qərbi Asiyanın kəsişməsində yerləşdiyini bildirən jurnalist R.Rajamanikam ölkəmizdə məscidlərin, sinaqoqların, erməni kilsəsi də daxil olmaqla, xristianlığa məxsus dini ibadət ocaqlarının, eləcə də hindu və zərdüştlük məbədlərinin qorunduğunu diqqətə çatdırır.

Malayziyalı jurnalist qeyd edir ki, Azərbaycanın multikulturalizm modeli artıq Bolqarıstan, Almaniya, Litva, Polşa, Ukrayna, Hindistan, Yaponiya, Braziliya, Portuqaliya, İndoneziya, Rusiya, Gürcüstan, Türkiyə, İsveç, İsveçrə və İtaliya kimi 22 ölkənin universitetlərində magistratura səviyyəsində dərs vəsaiti kimi tədris olunur. Malayziyalı tələbə və gənc jurnalistlərin Azərbaycan modeli ilə tanış olmaq perspektivləri barədə verilən suala R.Həsənov ölkəmizin bu sahədə əməkdaşlığa hazır olduğunu bildirir və əlavə edir: "Biz öz bilik və təcrübəmizi bölüşə bilərik. Həmçinin mərkəzimizin nümayəndəliyinin Malayziyada təsis olunmasına və Azərbaycan modelinə dair universitet proqramının tədrisinə kömək edə bilərik". R.Rajamanikam vurğulayır ki, son 5 ildə 100 ölkədən 400-dən çox tələbə BBMM tərəfindən Azərbaycanın multikulturalizm modelinin təqdimatı ilə bağlı təşkil olunmuş yay və qış məktəblərində iştirak edib.

# Sabiq MTX direktorunun Paşinyanı devirmək planı işə düşüb





***Ermənistanın baş naziri Nikol Paşinyanın böyük qızı - Maryam Paşinyan iddia edib ki, Milli Təhlükəsizlik Xidmətinin sabiq direktoru Artur Vanetsyan mətbuatda onun ailəsinə qarşı əks-kampaniyaya başladıb. Bu barədə "aysor.am" saytı yazır.***

"Facebook" səhifəsində rəy yazan Paşinyanın böyük qızı hakimiyyətə yaxın olan "Haykakan Jamanak" (Nikol Paşinyan bu qəzetin baş redaktoru olub, bu gün isə həmin vəzifəni arvadı Anna Akopyan icra edir - R.N.) qəzetində gedən məqaləni də paylaşıb. Həmin məqalədə isə bildirilir ki, Vanetsyan hökumət başçısına qarşı mediada davamlı kampaniya aparır və bu işə şəxsən nəzarət edir.

Maraqlısı isə budur ki, baş nazirin qızı Paşinyan-Vanetsyan ailələrinin qısamüddətli ailəvi dostluqlarını da xatırladıb.

## Nikolun böyük qızı Maryamdan maraqdoğurucu iddialar











### Anna Paşinyan: "Vanetsyan tərəfindən bizim ailəyə qarşı hücumlar baş verəndə, bunu anladım"

O yazıb ki, vaxtilə bu ailələr dostluq ediblər və hətta MTX-nin eks-direktorunun övladları ilə itlərini gəzintiyə çıxarıb və ərik yığmağa gediblər. SİTAT: "Biz, mütəmadi olaraq ailələrimizlə yığışırdıq, kofe içmək üçün süfrə arxasına otururduq. Mən indi də həmin günləri isti münasibətlərlə xatırlayır və onların bizimlə dostluq etmək maraqlarına inanırdım. Təəssüf ki, onlar tərəfindən sərgilənən ilıqlıq heç də səmimi deyilmiş. Belə ki, Vanetsyan tərəfindən bizim ailəyə qarşı hücumlar baş verəndə, bunu anladım".

Beləliklə, həmin məqalədən də göründüyü kimi, qəzetin əlində bir sıra erməni KİV-lərində Vanetsyanın koordinatorluğu ilə Paşinyanın arvadına və böyük qızına qarşı kampaniya aparması barədə faktlar var. "Haykakan Jamanak" onu da yazır ki, bu məsələ Vanetsyanın MTX-nin direktoru olduğu vaxtlardan başlayıb. Bundan əlavə, qəzetin digər versiyasına görə, o, məşhur kriminal avtoritet Aram Vardanyanın yardımı ilə yalan və şər üzərində "ixtisaslaşmış" erməni nəşrlərindən birinin baş redaktorunu verbovka edib.

### Bu məsələdə kriminal avtoritetin - Serj Sarkisyanın kürəkəninin, parlamentin keçmiş aparat rəhbərinin, hətta Koçaryanın da əli var

"Haykakan Jamanak," həmçinin, digər epizodu da xatırladıb ki, "məxməri inqilab"dan sonra kriminal avtoritet Vardanyanın başı üzərindən "qara buludlar" keçməyə başlayıb və o da, anidən ölkəni tərk edib. Bir neçə ay sonra isə, onu taparaq, Ermənistana geri gətiriblər, lakin məhkəmə onu həbs etməkdən imtina edib. Bu baxımdan, qəzet eyham vurub ki, bütün bunların arxasında, məhz o zamankı güclü MTX direktoru dayanıbmış.

Digər tərəfdən, daha bir maraq nüans budur ki, "Haykakan Jamanak" məsələnin bununla da, bitmədiyini iddia edib və hadisələrin başqa tərəflərini də işıqlandırıb. Belə ki, adıçəkilən erməni nəşrinin daha bir versiyasına görə, Vanetsyan MTX-nin direktoru olmasa belə, baş nazir Paşinyana və ailəsinə qarşı başladılan kampaniyada ona fəal şəkildə kömək edən daha bir fiqur Ermənistanın üçüncü və devrilmiş prezidenti Serj Sarkisyanın kürəkəni Mikael Minasyan, eləcə də, parlament aparatının sabiq rəhbəri Ara Saqatelyandır.

### Növbəti inqilab ab-havası?

"Feyk ordusunun köməkçiliyi ilə onlar guya baş naziri diskreditə etməklə, uzunmüddətli plan çərçivəsində hakimiyyəti dəyişmək qərarını icra edirlər" deyə Paşinyana yaxın media qurumu yazır və bütün bunlardan isə, həm də belə bir nəticəyə gəlmək olar ki, artıq devrilmiş hakimiyyətin adamları Nikol Paşinyan hökumətində təmsil olunmuş, sonradan isə qovulmuş şəxsləri özlərinə tərəf cəlb edirlər. Hətta belə bir ehtimalı da irəli sürmək mümkündür ki, həmin məsələdə ikinci prezident Robert Koçaryanın da ətrafının müəyyən dəstəyi ola bilər. Hər halda, artıq belə bir məsələnin ortaya çıxması, ümumilikdə Ermənistanın daxilindəki vəziyyətin nə dərəcədə ağır olduğunu, növbəti inqilab ab-havasının yaxınlaşdığını sübuta yetirir. Necə deyərlər, görünən dağa nə bələdçi..?

*Rövşən RƏSULOV*

# Bir müəllim ömrü

***Haqqında danışacağımız müəllim və alim Yusifova Anaxanım Əmralı qızı biologiya üzrə fəlsəfə doktoru, dosent, ADPU-nun Biologiya və onun tədrisi texnologiyası kafedrasının müdiridir. Anaxanım müəllimə 1983-cü ildə Bakı Dövlət Universitetinin biologiya fakültəsini bitirib. 2001-ci ildə dissertasiya müdafiə etmiş, biologiya üzrə fəlsəfə doktoru adını almış, 2009-cu ildə dosent elmi adına layiq görülmüşdür.***

"Mən dünyada müəllimdən şərəfli ad tanımıram"

***Heydər Əliyev***

2001-2009-cu illərdə ADPU-nun Botanika kafedrasının baş müəllimi vəzifəsində işləmiş, 2009-2013-cü illərdə ADPU-nun Botanika kafedrasının dosenti olmuşdur. 2011-2017-ci illərdə ADPU-nun Botanika kafedrasının müdiri vəzifəsində işləmişdir. 2017-ci ildən Biologiya və onun tədrisi texnologiyası kafedrasının müdiri vəzifəsində işləyir. Elmlər doktorluğu üzrə dissertasiya üzərində çalışır, 54 elmi əsərin müəllifidir.



Yuxarıda qeyd olunan göstəricilər bir insan, bir alim və bir müəllim üçün şərəfli həyat yolu olmaqla bərabər, özünəməxsus çətinliklərlə həyata keçirilir. Müəllimlik ən şərəfli peşə olsa da, bu peşənin çətinliyini hər kəs bilir. Bu peşə insanın həyatını öz dərinliklərinə aparır, müəllim yalnız öz həyatını yaşamır, təhsil verdiyi tələbələrin həyatını da öz həyatı ilə bərabər yaşayır.

Bir insan ömrü gənc nəslin yetişməsinə həsr olunursa, bu insan bir növ öz həyatını bu işə həsr edir, bu yolda daim axtarışda olur. Azərbaycan təhsilinin dünyaya inteqrasiyası və təhsil mentalitetinin dəyişməsi müəllimin işini daha da mürəkkəbləşdirdiyi üçün müəllim daim öz biliyini zənginləşdirməlidir.

Məlimdur ki, müasir təhsil sistemi daim dəyişir, bu da öz növbəsində müəllimin də öz metodikasını daim təkmilləşdirməsini, tələbələrə və digər təhsil işçilərinə fərdi yanaşmasını tələb edir. Müasir müəllim tələbənin daim dəyişən dünyada gedən proseslərə hazır olmasına, stres və depressiya vəziyyətlərində özünütənzimləməsinə kömək etməyi bacarmalıdır. Müasir müəllim tələbələrə psixoloji-emosional hallarda sərbəst və düzgün qərarlar verməyi öyrətməyi də bacarmalıdır. Göründüyü kimi, müəllimin öhdəsinə düşən vəzifələr daim yenilənir və çətinləşir.

ADPU-da martın 27-sində Azərbaycanda ilk dəfə olaraq Kimya-Biologiya fakültəsində "Elm günü"

Anaxanım müəllimə bir müəllim və kafedra müdiri kimi öz öhdəsinə düşən vəzifələri yüksək səviyyədə yerinə yetirir. Bunu Anaxanım müəllimə barədə fakültənin dekanı Elnarə xanım Mehbalıyevanın sözlərində də görmək mümkündür: Fakültədə tələbənin xeyrinə olan bütün məsələlərdə Anaxanım müəllimə ürəklə müraciət edə bilirik, o həmişə hər hansı bir problemin tələbənin xeyrinə həll olunmasına çalışır və bizə yaxından kömək edir".

2018-ci il aprelin 9-da Prezident İlham Əliyev cəmiyyətin inkişafında elmin əhəmiyyətini nəzərə alaraq Azərbaycan Respublikasında "Elm günü"nün təsis edilməsi haqqında Sərəncam imzalayıb. Bu tarix ölkə üçün əlamətdar bir vaxta - AMEA-nın təsis olunduğu günə təsadüf etdiyi üçün xüsusi əhəmiyyət daşıyır. Bu Sərəncama ADPU-da xüsusi diqqətlə yanaşılmış, martın 27-si Azərbaycanda ilk dəfə olaraq "Elm günü" kimi qeyd edildiyindən Kimya-Biologiya fakültəsində də xüsusi əlamətdarlıqla qeyd edilmişdir. Bu tədbirdə Anaxanım müəllimə tədbir təşkilatçılarından biri olmaqla bərabər, "Genmodifikasiyaedici qidalar və onlara qarşı maarifləndirmə tədbirləri" adlı məruzə ilə çıxış etmiş, insan sağlamlığının qorunması sahəsində gənc nəslə elmi məlumatlar vermişdir.

Anaxanım müəllimə uzun illərdir ki, ADPU-nun imtahanlarda Appelyaisya Komissiyasında fəaliyyət göstərir. Onun obyektivliyi, humanistliyi Universitet rəhbərliyi, eyni zamanda tələbələr tərəfindən müsbət qiymətləndirilir.

Nəhayət, alim kimi fəaliyyətinə gəldikdə kafedrada təzə işə başlayan müəllimlərin, doktorantların dərsə hazırlaşmasına çox diqqət və qayğı ilə yanaşmasını kollektivin bütün üzvləri təsdiq edə bilər. Onun mühazirəsini apardığı "Bitki fiziologiyası" fənninin laboratoriya dərslərini aparan müəllimlərə dərsin bütün incəliklərini, dərsdə qoyulacaq təcrübələrin texnologiyasını xüsusi diqqətlə öyrədir. Onun rəhbərlik etdiyi kafedrada professor-müəllim, o cümlədən tədris-köməkçi heyəti Anaanım müəllimədən xüsusi razılıqla danışırlar. O hamının qayğısına qalır, hamının iş və şəxsi problemlərinə xüsusi diqqətlə yanaşır.

Bu günlərdə ADPU-nun Elmi Şurasında Anaxanım müəllimə rektorluq tərəfindən Fəxri-Fərmanla təltif olunmuşdur. Onun Azərbaycan Təhsilinə göstərdiyi xidmət göz qabağındadır. İnsanlığı, alimliyi, müəllimliyi ən yaxşı sözlərə layiq olan Yusifova Anaxanım Əmralı qızına işlərində uğurlar, həyatda xoşbəxtlik və can sağlığı arzulayırıq.

***A.M.Həsənova,***
***ADPU-nun "Biologiya və onun tədrisi texnologiyası" kafedrasının dosenti***

# AXC rəhbərliyi Moskvanın məkrli planlarını icra edib

## Qorbaçov qırğına şərait yaratmaq üçün İsa Qəmbərdən, Arif Hacılıdan, Pənah Hüseyndən, Tofiq Qasımovdan, Hikmət Hacızadədən və digərlərindən istifadə etdi

***Dağıdıcı müxalifət zaman-zaman xalqımızın milli maraqlarına, dövlətçilik mənafeyinə zidd siyasi fəaliyyət yolu tutub. Hər zaman çalışıb ki, xalqın üzləşdiyi faciələrdən öz siyasi məqsədləri üçün istifadə etsin. Misal olaraq, ötən il Müsavat və AXCP-nin Xocalı soyqırımı günü cəmiyyətdə çaşqınlıq yaratmaq və hüzn gününü siyasi çağırışlarına çevirməyə cəhd göstərməsini misal gətirmək olar.***

Eyni zamanda, AXCP sədri Əli Kərimli ötən il 20 Yanvar faciəsi günü polislə qarşıdurmaya getməyə və pozuculuq aktları törətməyə cəhdlər göstərdi. Ənənəsinə sadiq qalan bu ünsürlər bu il də 20 Yanvar faciəsi ərəfəsi aksiya keçirməyə və polislə qarşıdurma yaratmağı planlaşdırırlar. Söhbət etdiyimiz müsahibimiz "Milli Şura"nın, AXCP-nin və Müsavat funksionerlərinin cəmiyyətdə qarşıdurma yaratmaq, pozuculuq aktları törətmək və bu kimi qanuna zidd əməllər törətməyə cəhd etmələrinin arxasında xarici maraqlı qüvvələrin müəyyən sifarişlərinin dayandığını söylədilər. "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov bildirdi ki, 20 Yanvar faciəsi ərəfəsi AXC rəhbərliyi Moskvanın məkrli planlarından xəbərdar olublar. Onun sözlərinə görə, 1989-cu ilin hələ dekabr ayında İsa Qəmbər şəxsən mənə dedi ki, 5-10 günə nə lazımdı olacaq və bəzi adamlar var ki, bunlar aradan götürüləcək, amma biz istəmirik Əbülfəz bəydə burda ilişsin, ona görə də, Əbülfəz bəyi bundan qurtarmaq, xilas etmək lazımdır və ardınca başqa məsələlər və söhbətlər oldu: "Bu, faktdır ki, bu adamlar əvvəlcədən bu işi bilirdi, təkcə bilirdi yox, hətta bütün qüvvələri, konkret olaraq mən ad çəkəcəm, Nemət Pənahlı Azərbaycan Xalq Cəbhəsi idarə heyətinin üzvü idi. Yəni Azərbaycan Xalq Cəbhəsi idarə heyəti təcili yalançı bir qurultay çağırdı və Nemət Pənahlını AXC üzvlüyündən çıxardılar. Bu nə məqsəd güdürdü? Bu birbaşa aldıqları sifariş idi ki, çılğın, davakar N.Pənahlının daha da çılğınlaşdırsınlar, qıcıqlandırsınlar. Nəticədə, vəziyyəti qarışdırmaq üçün N.Pənahlı bir az da artıq fəaliyyətə keçsin. Çünki N.Pənahlının qarşısını ala bilmirdilər, gənc idi, cavan idi, həddən artıq da cılğın idi və bütün bunların da hamısı birbaşa xidmət edirdi, məhz Moskvanın Bakıda keçirəcəyi bu qırğına. Mən çox faktlar sadalaya bilərəm. Konkret olaraq, Azərbaycan Xalq Cəbhəsi hələ yaradılanda bizə məlum oldu ki, başda İsa Qəmbər olmaqla, digərləri birbaşa Primakovun təlimatı ilə fəaliyyət göstərən adamlardır. Bunların bir məqsədi vardı, Moskvanın Bakıdakı bütün sifarişlərini yerinə yetirmək, həyata keçirmək, o cümlədən, Bakıda Azərbaycanın azadlıq uğrunda mübarizəyə qalxan xalqın gözünü qırmaq məqsədi ilə belə bir qırğın törədilməsi də planlaşdırılmışdır və bu qırğına şərait yaratmaq üçün Qorbaçov, məhz İsa Qəmbərdən, Arif Hacılıdan, Pənah Hüseyndən, Tofiq Qasımovdan, Hikmət Hacızadədən və digərlərindən istifadə etdi. Ona görə də, onların bu gün belə bir aksiya keçirməyi planlaşdırmaları, nəyinki özlərini sığortalamaq, sadəcə olaraq, özlərini cəmiyyətin gözündə guya bu hadisənin törədilməsinə qarşı olduqlarını göstərmək istəyi dayanır. Ancaq bu, uğursuz cəhddir. Bunlar hadisənin törədilməsində iştirak etmiş və qırğına şərait yaradan adamlar olublar.

***GÜLYANƏ***

# Sürüşmə sahəsində asılı vəziyyətdə qalmış torpaq kütlələrinin üzərində xırda uçqunlar baş verir



Badamdar, 20-ci sahə arasında olan magistral avtomobil yolunun sağ yamacındakı sürüşmə sahəsində vəziyyət stabil gərgin olaraq qalır. Proses tam başa çatmayıb. Lakin yanvarın 9-dan bu günə kimi ciddi dəyişiklik qeydə alınmayıb. Bu barədə AZƏRTAC-a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin Geoloji Planlama Ekspedisiyasının rəisi Əziz Qaralov məlumat verib. "Sürüşmə sahəsində asılı vəziyyətdə qalmış torpaq kütlələrinin üzərində xırda uçqunlar baş verir. Bu da təbii prosesdir. Bu gün səhər mütəxəssislərimiz orada araşdırmalar aparıblar. Sürüşmə kütləsi üzərində ciddi dəyişiklik yoxdur. Proses tam başa çatmadığından monitorinqlər davam etdirilir", - deyə ekspedisiya rəisi diqqətə çatdırıb.

# Özbəkistan portalında Xalq artisti Leyla Bədirbəyli haqqında yazı dərc edilib




***Özbəkistanın kultura.uz portalında Xalq artisti, SSRİ və Azərbaycanın Dövlət mükafatları laureatı Leyla Bədirbəyli haqqında yazı dərc olunub. AZƏRTAC xəbər verir ki, görkəmli aktrisanın 100 illiyi ilə bağlı verilən məqalədə onun uşaqlıq və gənclik illəri haqqında söhbət açılır, əvvəllər rəqs dərnəyində çalışdığı bildirilir.***

Qeyd olunur ki, Leyla Bədirbəyli iki filmdə epizodik rolda oynadıqdan sonra 1940-cı illərin əvvəllərində kinorejissor Hüseyn Seyidzadə onu "Ayna" filmində baş rola çəkir. Filmdə Leyla Bədirbəyli tanınmış aktyorlar-Ələskər Ələkbərov, Mövsüm Sənani, İsmayıl Əfəndiyevlə birlikdə oynayır. Sonra "Səbuhi" filminə dəvət alır. 1945-ci ildə lentə alınan "Arşın mal alan" filmi isə yaradıcı kollektivə, o cümlədən Gülçöhrə rolunun ifaçısı Leyla Bədirbəyliyə böyük uğur gətirir. Bu film həm keçmiş SSRİ-də, həm də dünyanın 50-dən artıq ölkəsində göstərilir və müvəffəqiyyət qazanır. Məqalədə bildirilir ki, ümumiyyətlə Leyla Bədirbəyli 50-dən artıq filmdə yaddaqalan obrazlar yaradıb.

# Keçmiş məhkumdan tapança və beş patron götürülüb

Xəzər Rayon Polis İdarəsinin 2-ci polis şöbəsinin əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Albalılıq qəsəbə sakini, əvvəllər məhkum olunmuş A.Hacıyevdən "TT" markalı tapança və beş patron aşkar edilərək götürülüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Cəlilabad Rayon Polis Şöbəsinin əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində Maşlıq kənd sakinləri F.Zeynalovdan, Z.Sadıqovdan və Q.Hüseynovdan müvafiq sənədləri olmayan və nömrəsi silinmiş üç ədəd "İJ-58" markalı ov tüfəngi aşkarlanıb. Zərdab Rayon Polis Şöbəsinin əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində isə Ucar rayon sakini Ə.Əliyevdən müvafiq sənədləri olmayan "TOZ-B" markalı ov tüfəngi götürülüb.



# Gültəkinin arzusu baş tutmayanda...

## Və ya pişiyin ağzı ətə çatmayanda...



**O adam kor və mənəviyyatsızdır ki, olub-keçənləri unudur, olanlara da gözüyumulu baxır. Qondarma qurum olan "Milli Şura"nın "primadonnası Gültəkin Hacıbəyli kimi. Satirik şairimiz Mirzə Ələkbər Sabirin dediyi fikri bu "primadonna", heç olmasa, yadına salsın: "Pisi-pis, əyrini əyri, düzü həmvar yazıram" ibrətamiz sözlərini bir anlığa beynində saf-çürük etsin. Bir də "beyin" deyilən üzv olsaydı belə, danışmazdı. Ancaq yenə də bu Şərxanım bir məqamı da anlamalıdır ki, nə qədər böhtan atar və yalan deyərsə, xalqın nifrəti də birə-on qat artır.**

Bu Şərxanım da iddia edir ki, guya dünyanın siyasi gündəmində əsas müzakirə obyekti Azərbaycandakı ağır həyatdır və seçkilərin qanunsuz keçirilməsidir. İnsaf dinin yarısıdır, axı bu qədər də ağ eləmək olmaz. İnsafın olsun, bir gözlərini aç, dünyaya yaxşı-yaxşı bax, baxa bilmədiyin halda, doğrudan da, korsan. 9 fevralda keçiriləcək parlament seçkiləriərəfəsi sosial şəbəkələrdə cızma-qara çağırılmış bayatıdır, çeynənmiş və sənin də mənsub olduğun müəyyən bir qrupun çoxdan oxuduğu nəğmələrdəndir. Bunları tutuquşu kimi əzbərləyib, artıq neçə illərdən bəri təkrar edirsən. Düz o vaxtdan ki, deputatlıq pilləsi əlindən çıxdı. Birbaşa deyilsə də, deputatlıqdan sonra müəyyən bir dövr keçdi və sənin siyasi əqidən (əgər o, səndə ümumən var idisə) tamamilə dəyişdi. Gəl sənin əvvəlki çıxışlarına və danışıqlarına baxaq. Bu gün G.Hacıbəyli deyir ki, "saxtakarlıqla keçirilən seçkidə iştirak etmərəm" deməsi, ən böyük cinayətdir. Çünki bu gün demokratik seçki mühitinin formalaşdırılması Azərbaycanda hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən birinə çevrilib.

### Demokratik meyarlara cavab verən seçki sistemi

Tarixi təcrübə göstərir ki, hər bir dövlətin mütərəqqi inkişafı müxtəlif səbəblərlə yanaşı, həm də demokratik seçkilərdən asılıdır. Bu gün Azərbaycanın inkişaf edən seçki sistemində demokratik ab-havanın və şəffaflığın təmin edilməsi üçün müasir informasiya texnologiyaları da tətbiq olunur. Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, ölkəmizdə keçirilən seçkilər daha mükəmməl qanunvericilik bazası və daha böyük seçki təcrübəsi əsasında həyata keçirilir. G.Hacıbəyli, ümidlərin puça çıxan kimi, başlamısan böhtanlar deməyə. Döşünə döyüb "ziyalı-ziyalı" deyərək özünü ziyalıların "qaymağı" sayırsan. Saydığın başqa, həqiqət isə bambaşqadır. Axı, sənə necə ziyalı demək olar ki, sən öz beyninlə düşünmək iqtidarında deyilsən. Haqq yolundan dəm vurursan. Sən ki, hələ haqla nahaqqı bugünəcən də ayırd edə bilməmisən... Sən "haqq" deyəndə, fikirləşirsən ki, bundan necə öz məqsədlərin üçün istifadə edə bilərsən. Sən təkcə güzgüdə yox, elə hər yanda özündən başqa heç kəsi görmürsən.

### Ələkçinin "qıl verən" casusu

Düzü, hər dəfə özünü "Milli Şura"nın əzəli və əbədi, "cəfakeş" üzvü adlandıran, müxalifətçi libası altında mənəviyyatsızların, o cümlədən, G.Hacıbəyli kimilərə içimdə olan nifrətimi bildirmək üçün söz axtarışına çıxdım. Ancaq tapa bilmədim. Çünki Azərbaycan leksikonunda və dəyərli ata-babalarımızın ibrətamiz sözləri ilə danışmışıq, bu dəyərli sözlərdən bəhrələnmişik. Bu gün G.Hacıbəyli ölkəmizdə keçirilən hər hansı ictimai-siyasi hadisələr zamanı dediyi böhtanları görəndə, ünvanlarına nə desəm belə, özümü günahkar saymıram. Elə bu yerdə 2009-cu ildə keçirilən referendum zamanı İTV-də keçirilən debatda "Hüquq və Demokratiya Təşviqat Qruppu"nun vəkili olan G.Hacıbəyli ilə İ.Qəmbər arasında baş verən insidenti xatırlatmaq istərdim. G.Hacıbəyli çıxışı zamanı "terrorçuları və casusları cəmiyyətə siyasi məhbus kimi sırıyanlar" deyəndə də, AXCP sədri Ə.Kərimlini və Müsavat başqanını nəzərdə tuturdu. Bu 6-7 ildə nə dəyişdi ki? Və necə "müxalifətçi" oldun?

Bəli, bu, həmin Gültəkindir. Bu, dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim olmayan Gültəkindir. Adamın yazığı gəlir buna. İnsanın Ə.Kərimlinin, İ.Qəmbərin, A.Hacılının, F.Qəhrəmanlının, İ.Məmmədovun timsalında rəzil günə düşməsi, elə də təsirli deyil, ancaq qadının bu kökə düşməsi dəhşətdir.

### Nə yaxşı ki, YAP-çı olmamısan

Qarşıdakı parlament seçkiləri ərəfəsi "Milli Şura"nın koordinasiya mərkəzinin üzvü G.Hacıbəyli "Facebook" səhifəsində YAP-çı olmamağı ilə bağlı bağırtı salır. Amma anlamır ki, onun kimi rəzil, saxtakar və mənəviyyatsız xalqın partiyası olan siyasi təşkilatın üzvü olmaması bütün YAP-çıları, daha doğrusu, bütün xalqı sevindirir. Bəzən bizi qınayırlar ki, tənqid edin, təhqir etməyin. Ancaq G.Hacıbəylinin dediyi bu fikirlərdən sonra ona (xalqımdan min dəfə üzr istəyirəm) şərəfsiz deməyim yerinə düşür.

G.Hacıbəyli, bunu tək YAP trolları demir, həm də dünənə qədər səninlə can-ciyər olan sabiq həmkarın Gülər Əhmədova da deyir: "Gültəkin Hacıbəyli o qədər gülməli birisidir ki, onun əməllərinin üstü hələ çox açılacaq. Bu, hələ qanmır ki, artıq bunun iç üzünü, hətta AŞPA da tanıdı. Və buna cəza kəsdi ki, ay yalançı, sən artıq AŞPA-nın bütün binalarına belə girə bilməzsən. Gültəkin getsin, yazsın ki, niyə 10 il deputat olanda, həmin istiqlalçı qadın deputatın hayına getməyib, amma ölkədə əl qoymadığı biznes, ev almadığı bina, torpaq almadığı bələdiyyə qalmamışdı. Gültəkin yazsın görək, niyə mitinqə gələn bu qədər müxalifətçini aldadırdı ki, guya AŞPA və digər Qərb institutları ilə gözəl münasibətləri var. Gültəkin harda, hansı siyası qüvvənin yanında olubsa, qeyri-səmimi və riyakar davranıb. Burdan sənə səslənirəm: "Sakit ol, sənin üzünə qapıların əbədi bağlamış AŞPA-nın niyə, məhz sənin belə davrandığının səbəblərini yaz. Çünki sən siyasi alverçisən".

Bütün bu reallıqlardan sonra, doğrudan da, ay bədbəxt və rəzil qadın, sənin gözlərin, həqiqətən də torlaşıb, qulaqların karlaşıb. Hələ də anlamırsan ki, hakimiyyət xalqına xidmət edir, xalqının dərdinə-sərinə yanır, xalqı üçün bütün imkanlardan istifadə edir və ona görə edir ki, xalq hakimiyyətin mənbəyidir! G.Hacıbəyli kimilər, həqiqətən də, bədbəxtdilər. Hakimiyyət xalqla hesablaşmaqla yanaşı, xalqla bir yerdə bu qələbələri qazanır. Həmin qələbələri ki, hətta yüşürlərdən sosial şəbəkələrə keçən sizin kimi erməni üfunəti verənlər elə o üfunət içində boğula-boğula qalacaqsınız, necə ki qalırsınız! LƏNƏT OLSUN SİZLƏRƏ!!!

*Rəfiqə HÜSEYNOVA*

## "Könüllülər İli" və cəmiyyət



Təhmasib Novruzov

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2020-ci ilin "Könüllülər İli" elan olunması, ölkə vətəndaşlarının tam əksəriyyəti kimi, mənim də ürəyimcə oldu. Hesab edirəm ki, ölkə başçısının imzaladığı bu Sərəncam həm siyasi, həm də ictimai baxımdan mühüm əhəmiyyət kəsb edir və hər kəs Könüllülük Hərəkatının genişlənməsi, cəmiyyətin ən zəruri sahələrini əhatə etməsi işində fəal iştirak etməlidir.**

Məsələnin siyasi əhəmiyyəti barədə, düşünürəm ki, hər kəsin kifayət qədər anlayışı var. Bu barədə təkrarçılığa yol verib oxucuların qiymətli vaxtını məşğul etməyə lüzum görmürəm. Məqsədim, bəzi hallarda ölkə başçısının imzaladığı sərəncamlara cəmiyyətin müxtəlif təbəqələrinin yanaşmasında qarşılaşdığımız fərqli münasibət, bu qərarın ictimai mahiyyəti haqqında, onun həyatımızda kəsb elədiyi mühüm əhəmiyyəti haqqında düşüncələrimi diqqətə çatdırmaqdan ibarətdir. Bu tarixi Sərəncam, sadəcə, ölkəmizdə keçirilməsi nəzərdə tutulan beynəlxalq idman yarışları, eləcə də, artıq ənənə halını almış digər beynəlxalq tədbirlərdə könüllülərin fəallığını nəzərdə tutmur. Məhz ölkə başçısının "şah əsərləri"ndən biri olan, artıq dünya brendinə çevrilmiş "ASAN Xidmət"lə eyni zamanda, təşəkkül tapan könüllülər hərəkatı da, elə "ASAN Xidmət" kimi dünyada geniş maraq doğuran fəaliyyət formasıdır. İnsan həyatı boyu çalışır, işləyir, əmək haqqı alır və həyatını düzənə qoyur. Fəqət, bəzi hallarda daxili enerjisi böyük olan insanlar var ki (zənnimcə azərbaycan cəmiyyətində beləlari çoxluq təşkil edir), onların, sadəcə, iş yerində göstərdiyi fəaliyyətlə enerjiləri tükənmir, enerjisini sərf etməyə əlavə məkan və ya forma axtarır. Zənnimcə, məhz bəzi hallarda cəmiyyətimizdə xoşa gəlməyən hadisələrin baş verməsinin səbəblərindən biri də, enerjili insanların, belə demək mümkünsə, "enerji sərfiyyatı"nın yetərincə olmaması ilə bağlıdır. Xüsusilə, gənclər arasında belə xoşagəlməz halların daha çox baş verməsi də, fikrimizin təsdiqinə əlavə stimuldur. Gənclik ömrün elə çağıdır ki, hər bir gənc özünü cəmiyyətdə təsdiq etmək, imkanlarını nümayiş etdirmək, qazancın çoxluğundan-azlığından asılı olmayaraq qabiliyyətini ortaya qoymaq üçün məqam axtarışında olur. Heç də hər bir gənc idmanda uğurlara imza ata bilmir, hər bir gənc qabiliyyət və bacarığını nümayiş etdirmək üçün şərait əldə edə bilmir. Bu baxımdan, könüllülər hərəkatının miqyasının genişlənməsi, həm qabiliyyətli, istedadlı gənclərin özlərini göstərmələri baxımından, mühüm əhəmiyyət kəsb edir, həm də cəmiyyətin müxtəlif sahələrinin daha sürətli inkişafına impuls vermiş olur. Hesab edirəm ki, ölkə gəncləri təkcə, yuxarıda qeyd etdiyimiz kimi, beynəlxalq tədbirlərdə və "ASAN Xidmət" kontekstində deyil, cəmiyyətin bütün sahələrində könüllü fəaliyyətlərini genişləndirməlidirlər. Bu, həmin sahələrin inkişafına yardımçı olmaqla yanaşı, həm də gənclərin mənəvi tərbiyəsində mühüm rol oynaya bilər. Konkret halda, ölkə başçısının sərəncamlar və Dövlət Proqramı imzalamasına rəğmən, cəmiyyətdə Müstəqil Azərbaycanın Dövlət dili kimi təsbit olunan ana dilinə münasibətdə mövcud olan problemlərə münasibət ortaya qoymaqla, dolayısı ilə deyil, birbaşa həm özlərinin, həm də yaxın ətrafının mənəviyyatına ciddi təsir göstərmiş olur ki, bu da, nəticədə, ana dilimizin saflığının qorunmasında əhəmiyyətli rola malikdir. Eyni fikri ailə institutunun getdikcə aşılanmasının qarşısının alınmasında və milli ailə ənənələrinin bərqərar olmasında, indiki dünyamızı narahat edən ekoloji problemlərin həllində, eləcə də, digər cəmiyyəti ciddi narahat edən problemlərin həllində könüllü iştirak haqqında da demək olar. Bu və digər sahələrdə mövcud olan problemlərin həllində əməyi olan hər kəs, həyatı boyu həmin problemin yenidən mövcud olmamasına çalışacaq ki, bu da, mənəvi tərbiyənin davamlılığının mühüm elementlərindəndir. İliniz mübarək, Vətən naminə, Xalq naminə, Dövlətçilik naminə imkanlarını əsirgəməyən KÖNÜLLÜLƏR!

## Bakıda soyğunçuluqla məşğul olan şəxslər tutulub



Paytaxtda soyğunçuluqla məşğul olan şəxslər tutulublar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Suraxanı Rayon Polis İdarəsinin 31-ci polis bölməsinə müraciət edən Əmircan qəsəbə sakini A.Salahov yanvarın 7-də saat 18 radələrində qəsəbə ərazisində iki nəfərin ona zor tətbiq edərək mobil telefonunu aldığını deyib. Soyğunçuluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini T.Cəfərov və Quba rayon sakini İ.Gülməmmədov əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanıblar.

Nəsimi Rayon Polis İdarəsinin 19-cu polis şöbəsinə müraciət edən Bakı şəhər sakini D.Nəsirov isə yanvarın 12-də saat 9 radələrində Cavadxan küçəsi ev 28-in qarşısında 1 nəfərin ona zor tətbiq edərək mobil telefonunu aldığını bildirib. Soyğunçuluğu törətməkdə şübhəli bilinən Şirvan şəhər sakini, əvvəllər məhkum olunmuş E.Məmmədov keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən edilərək yaxalanıb. Hər iki faktla bağlı araşdırma aparılır.

# Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

14 yanvar

Son səhifə


İDMAN

## Luiz Suares 4 ay futboldan uzaq qalacaq!



İspaniyanın "Barselona" futbol klubu ciddi itki ilə üzləşib. Komandanın əsas hücumçularından olan Luiz Suares dizindən əməliyyat olunub. Klubun rəsmi saytı 32 yaşlı uruqvaylı hücumçunun 4 ay meydana çıxa bilməyəcəyini açıqlayıb.

L.Suares ötən mövsümün sonunda da dizindən əməliyyat olunub. Qeyd edək ki, uruqvaylı hücumçu cari mövsümdə Kataloniya klubunun heyətində keçirdiyi 23 matçda 14 qol vurub və 11 məhsuldar ötürmə edib.

## "Yuventus"a bəd xəbər: Merih Demiral zədələndi!



İtaliyanın "Yuventus" futbol klubunun türkiyəli müdafiəçisi Merih Demiral zədələnib. Futbol üzrə İtaliya A Seriyasının 19-cu turunda "Roma" (1:2) ilə görüşün 3-cü dəqiqəsində fərqlənən 21 yaşlı müdafiəçi 19-cu dəqiqədə zədələnərək, yerini Matteys də Liqtə verib. Top uğrunda hava mübarizəsindən sonra yerə uğursuz eniş edən Merihin əzələ yırtığı olması ehtimalı var. Daha dəqiq diaqnoz bu gün tibbi müayinədən sonra bəlli olacaq.

Qeyd edək ki, həmin qarşılaşmada "Roma"nın yarımmüdafiəçisi Nikolo Zaniolo da sıradan çıxıb. Zaniolo isə Cengiz Ünderlə əvəzlənib.

## Belarusda robot-jurnalist hazırlanır



Belarusda süni intellekt hesab edilən robot-jurnalist hazırlanır. BELTA agentliyi xəbər verir ki, "HostFly.by" hosting provayderinin rəhbəri Aleksandr Xmıl Belarusda insan müdaxiləsi olmadan həmsöhbətlərə suallar verə biləcək və cavablara əsaslanan mətnlər hazırlayacaq süni intellektin artıq ilk sınaqdan keçirildiyini deyib. Robot-jurnalist ilk olaraq yerli nəşrlərin birində fəaliyyət göstərəcək.

Süni intellekt həmsöhbətini qiymətləndirəcək və müəyyən bir şəxs haqqında məlumatlara əsaslanan suallar yarada biləcək. Eyni zamanda, robot-jurnalist həmsöhbətin psixoloji qiymətləndirməsini aparmaq və ona emosional reaksiya verəcək sualları seçmək iqtidarında olacaq.




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin məlumatına əsasən, yanvarın 13-də ölkə ərazisində hava şəraiti dəyişib, qeyri-sabit keçib, əksər rayonlarda yağış, Naxçıvan Muxtar Respublikası, Yuxarı Qarabağ və Böyük Qafqazın bəzi yerlərində isə qar yağıb və qar örtüyü əmələ gəlib.

Departamentdən AZƏRTAC-a bildiriblər ki, qar örtüyünün hündürlüyü Ağdərədə (Ordubad) 8, Sarıbaşda (Qax) 7, Daşkəsəndə 6, Xınalıq, Qırızda 5, Şahbuzda 4, Sədərəkdə 3, Naxçıvan, Altıağac, Ordubad, Şərurda 2, Qusar, Xaltan, Gədəbəydə 1 santimetrə çatıb. Havanın minimal temperaturu dağlıq ərazilərdə 3-7°, yüksək dağlıq ərazilərdə 10-13° şaxta təşkil edib.

SƏRBƏST

## Diqqət: Enerji içkilərindən istifadə orqanizmi sürətlə zəiflədir!




Enerji içkiləri iki kateqoriyaya ayrılır. Birinci qrupa kofein həcmi artıq olan, ikinci qrupa isə karbohidratın həcmi çox olanlar daxildir. Kofeini yüksək içkilərə gənclər daha çox üstünlük verir. Karbohidratı çox olan içkilərdən isə əsasən idmanla məşğul olanlar istifadə edir. Həmin içkilərin təsiri təxminən 3-4 saat davam edir.

AZƏRTAC xəbər verir ki, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun həkim-terapevti Taleh Abbasov enerji içkilərinin uşaqların, hamilə qadınların və ürək-damar xəstəliyindən əziyyət çəkənlərin qəbul etməsinin çox təhlükəli olduğunu deyir: "Tərkibi kofeinlə zəngin olan energetik içkilərin qəbulu süni stimulyator təsiri göstərir, yəni orqanizmdə bütün enerji mənbələrini süni olaraq kəskin şəkildə gücləndirir, bu isə xüsusilə ürək-damar sisteminə çox ciddi təzyiq yaradır və nəticədə ürək-damar sistemi normal olduğundan qat-qat artıq işləyir".

Enerji içkilərinin təsiri keçdikdən sonra insanda yorğunluq hissi yaranır. İdmanla məşğul olduqdan sonra isə içilən enerji içkisi qan təzyiqinin yüksəlməsinə, qan-damar sisteminin hərəkət prosesinə ciddi təsir göstərir. Mütəxəssislər bu içkiləri təbii şirələrlə əvəz etməyi daha məqsədəuyğun sayırlar.

Həkim-terapevtin dediyinə görə, alma, kök, çuğundur, nar, armud kimi meyvə və tərəvəzlərdən hazırlanan və gündə 1 və ya 2 stəkan qəbul edilən təbii şirələr süni stimulyator içkilərini tamamilə əvəz edə bilər.

10 qram kofein insan üçün təhlükəlidir. Bu isə 150 ədəd enerji sərfi deməkdir. Belə içkilər qısamüddətli yaxşı əhval-ruhiyyə yaradır, süni enerji artımı isə orqanizmin zəifləməsinə səbəb olur.

Xatırladaq ki, yanvarın 1-dən ölkəmizdə "Enerji içkilərinə dair müvəqqəti sanitariya normaları və qaydaları" qüvvəyə minib. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən hazırlanan yeni qaydalar bu məhsulların minimum keyfiyyət göstəriciləri və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı qablaşdırılması, etiketlənməsi, daşınması və saxlanmasına, həmin məhsulların istehsalında istifadə olunan xammal və materiallara dair məcburi tələbləri əks etdirir. Məqsəd enerji içkilərinin insan həyatı və sağlamlığı üçün təhlükəsizliyinin, istehlakçıların hüquqlarının müdafiəsinin təmin olunmasıdır. Bu qaydalar tərkibində insanın mərkəzi sinir sisteminə stimullaşdırıcı və ya antisedativ təsir göstərən enerji içkilərinə şamil edilir.

## ELAN

ADPU-nun "Filologiya" fakültəsinin I kurs tələbəsi Mürşüdlü Rəna Aqil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin 1BT1907B qrup tələbəsi Şükürlü Fatimə Həsən qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsil fakültəsinin III kurs tələbəsi Əmirova Dünyaxanım Ehtiram qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov



Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62



"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.
Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.
Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600